

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 17 (859) ▪ 11 may 2017 www.vergiler.az Qiymәti: 60 qәp.

# Ulu öndər Heydər Əliyevin xatirəsinə böyük ehtiramla...

Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü günüdür. Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları və yaxınları onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəliblər. Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, xatirəsini ehtiramla anıb. Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarlarını ziyarət edərək üzərinə gül dəstələri qoyublar.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Qala-Türkan avtomobil yolunun ətrafında salınmasına başlanılan yaşıllıq massivində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilən ağacəkmə aksiyasında iştirak ediblər. Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Azərbaycanda ekoloji vəziyyətin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərlə bağlı məlumatları əks etdirən stendlərlə tanış olublar. Prezident İlham Əliyevə 2008-2017-ci illərdə salınan yaşıllıqlar barədə məlumat verilib. Bildirilib ki, dövlətimizin başçısının tapşırıqlarına və tövsiyələrinə uyğun olaraq, bu illərdə ölkədə ümumilikdə 5 milyon 200 minə yaxın ağac əkilib. Həmin ağacların əkildiyi sahələr damcılı suvarma sistemi ilə təchiz edilib. Əsasən zeytun, badam, nar, innab, püstə, qoz və fındıq ağaclarının əkilməsinə daha çox üstünlük verilib. Təkcə bu ilin ötən dövründə ölkədə aqrobağların yaradılması məqsədilə 1 milyondan çox aqrar əhəmiyyətli ağaclar əkilib.



Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkiblər. Mayın 10-da Qala-Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq massivində 9 minə yaxın aqrar əhəmiyyətli və digər növ ağaclar əkilib. Dövlətimizin başçısı və birinci xanım ağacəkmə kampaniyasının iştirakçıları ilə xatirə şəkilləri çəkdiriblər.

# Azərbaycan dünyada mədəniyyətlərarası dialoq platformasına çevrilib

Mayın 5-də Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində beynəlxalq təşkilatların birinci yüksək səviyyəli görüşü olub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva görüşdə çıxış edib.




Birinci vitse-prezident bildirib ki, Azərbaycan dünyanın coğrafi və mədəni müxtəlifliyinin qovuşduğu nadir ölkələrdən biridir. Azərbaycanın paytaxtı Bakı Şərq ilə Qərbin, eləcə də müasir və tarixi dövrlərin harmonik birləşməsidir. Öz tarixi boyu Azərbaycan qarşılıqlı əməkdaşlıq və dostluq şəraitində yaşayan müxtəlif mənşəyi və dini olan fərqli icmaların və millətlərin yaşadıqları məkan olub. Şərqin qapısı kimi tanınan, müxtəlif mədəniyyət və sivilizasiyaların, Şərq ilə Qərbin, Şimal ilə Cənubun kəsişməsində yerləşən və nəhayət, həm İslam, həm də Avropa təşkilatlarının üzvü olan Azərbaycan çoxsaylı sivilizasiyaların dəyərlərini özündə birləşdirir.

Mehriban Əliyeva qeyd edib ki, Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələri ölkəmizin ictimai və siyasi həyatında mühüm rol oynayırlar: «Biz onlar tərəfindən öz etnik dəyələrini, dinlərini və ənənələrini tam şəkildə necə qoruyub saxladıqlarını aydın şəkildə görürük. Azərbaycanda etnik və dini tolerantlıqla yanaşı, milli və mədəni müxtəliflik ab-havası ölkəmizi bir çox millətlərin və dinlərin olduğu məkana, o cümlədən qlobal səviyyədə mədəniyyətlərarası dialoq platformasına çevirib».

Mehriban Əliyeva bildirib ki, millətləri və dinləri bir-birinə daha yaxın edən mühüm siyasi təşəbbüslərdən başqa, Azərbaycan dünyanın bir sıra ölkələrində müxtəlif humanitar və xeyriyyə layihələri həyata keçirib. Onlardan Pakistanın Müzəffərabad regionunda 2005-ci ildə zəlzələ nəticəsində dağılmış qızlar üçün məktəbin yenidən tikilməsi, Romada qədim Marçellinio və Pietro katakombalarının və Versal Sarayının parkında tarixi abidələrin bərpası, Bosniya və Herseqovina, Gürcüstan, Macarıstan, Rumıniya, Rusiya və Serbiyanın bir sıra şəhərlərində məktəblərin, məscid və kilsələrin, reabilitasiya mərkəzlərinin, tibb ocaqlarının və istirahət parklarının tikintisi, həmçinin Fransanın Aşağı Normandiya regionunda 20-yə yaxın yerli kilsənin, Strasburq Soborunda şüşə vitrajların, Vatikanın Apostol Kitabxanasında qədim əlyazmaların bərpası və rəqəmsal formata salınması, Vatikan muzeylərində bir sıra abidələrin, Bolqarıstanın Veliko Tırnovo şəhərində Trapezitsa Memarlıq Muzeyi Qoruğunun və İtaliyada, Romada Kapitoli Muzeyində filosoflar zalının bərpa olunması mühüm əhəmiyyət kəsb edir: «Bu misallar mədəniyyətlərarası dialoqun potensialına və mövcudluğuna olan güclü inamımızı aydın şəkildə göstərir. Qlobal mədəni irsin qorunmasına verdiyimiz töhfə Azərbaycanın multikulturalizm dəyərlərinə birmənalı bağlılığını nümayiş etdirir».

Birinci vitse-prezident qeyd edib ki, bu gün dünya qarşılıqlı anlaşma əsasında sivilizasiyaların dəyərlərinin qorunmasına və təşviq olunmasına ciddi ehtiyac duyur. Bu proses çərçivəsində hökumətlərin, siyasətçilərin, beynəlxalq təşkilatların və medianın üzərinə böyük məsuliyyət düşür. Dünyada milyonlarla insan hələ də yoxsulluqdan, aclıqdan, sosial bərabərsizlikdən, sağlamlığa təhdidlərdən əziyyət çəkir. Digərləri isə təbii və antropogen fəlakətlərdən, zorakı ekstremizmdən, terrorçuluqdan və humanitar böhranlardan əziyyət çəkirlər: «Bəzi hallarda beynəlxalq hüquqa riayət edilmir və ya onun normaları ikili standartlar nəticəsində pozulur. Əslində, insan həyatına aid məsələlər və hər kəsin təhlükəsiz həyata hüququ ən ali prinsiplərdən biridir və qorunmalıdır. Bu baxımdan, mədəniyyətlərarası, dinlərarası dialoq və əməkdaşlıq anlaşma və hörmət prinsipləri ilə birgə cəmiyyətin inkişafının mərkəzində dayanır. Məqsədlərimizə nail olmaq üçün bəşəriyyət millətlər arasında qarşılıqlı əlaqəni quraraq, daha güclü münasibətləri yaradaraq ekstremizm və ksenofobiya kimi maneələri aradan qaldırmalıdır. Biz beynəlxalq təşkilatların, maliyyə və iqtisadi təsisatların göstərdikləri yardımı yüksək dəyərləndiririk və etiraf edirik ki, bu, həmin prosesin ayrılmaz hissəsidir».

Mehriban Əliyeva bildirib ki, yüksək səviyyəli bu toplantının keçirilməsində məqsəd dünyanın siyasi, iqtisadi, mədəni, sosial, maliyyə və digər beynəlxalq təşkilatlarının insanların təhlükəsizliyi, davamlı inkişafı və inklüziv cəmiyyətlə bağlı qarşısında duran məsələləri müzakirə etməkdən ibarətdir: «Biz həmçinin çalışırıq birgə tədbirlər görək ki, mədəniyyətlər və sivilizasiyalar arasındakı gərginliklər aradan qalxsın. Çünki onlar bəzi hallarda dini, mədəni və sosial məhdudiyyətlər yaradır. Bu təşəbbüs resursları səfərbərliyə almaq, o cümlədən dünyanı daha təhlükəsiz etmək üçün birgə səylərin göstərilməsində əlavə platforma olacaq. Ona görə də beynəlxalq təşkilatların təmsilçilərinin iştirakı ilə birinci yüksək səviyyəli toplantının keçirilməsi mədəniyyətlərarası anlaşmanı, tolerantlığı, qarşılıqlı hörməti, qlobal vətəndaşlıq etikasını, müştərək məsuliyyətimizi təmin edəcək. Bütün bu işlərin həll olunması asan deyil. Bizim hamımızın müxtəlif mədəni mənşəyi var. Etiraf etməliyik ki, müxtəlif perspektivlər mövcuddur və onlar açıq qalır».

Birinci vitse-prezident onu da qeyd edib ki, dialoq dərhal razılaşma, sadə anlaşma və yaxud başqa məsələlərin həlli demək deyil: «Çünki bu, müxtəlif ideyalar və stereotiplər arasında olan boşluğun aradan qaldırılmasına göstərilən cəhddir. Bu, təbii ki, münaqişədən daha yaxşıdır. Mən sizə maraqlı diskussiyalar arzulayıram. Hesab edirəm ki, bizim məramımız bununla daha da güclənəcək. Biz dialoqu davam etdirəcəyik və bir çox çağırışları aradan qaldırmağa nail olacağıq».

# Azərbaycan xalqı faşizm üzərində Qələbəyə sanballı töhfələr verib

Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 72-ci ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər. Dövlətimizin başçısı və xanımı İkinci Dünya müharibəsinin veteranları ilə görüşüblər, onları Böyük Qələbə münasibətilə təbrik ediblər.

Müharibə veteranları Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Qələbə Günü münasibətilə təbrik edib, onlara göstərdikləri yüksək diqqətə və qayğıya görə, minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasını Prezident İlham Əliyev uğurla davam etdirir. Azərbaycan və onun paytaxtı Bakı şəhəri gündən-günə inkişaf edir, gözəlləşir, abadlaşır.

Xanım Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə təbrik edən Böyük Vətən müharibəsi veteranları bildiriblər ki, dövlətimiz onlara yüksək qayğı göstərir. Veteranlar bu qayğıya cavab olaraq gənclərimizin vətənpərvərlik ruhunda böyümələri, Vətəninə və xalqına layiqli övlad kimi yetişmələri üçün öz bilik və bacarıqlarını əsirgəməyəcəklərini deyiblər.

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. İkinci Dünya müharibəsində SSRİ-nin qazandığı şanlı Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzini və yüksək keyfiyyətli yağların 85-90 faizi Azərbaycanın payına düşürdü. Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarus, Pribaltika cəbhələrində cəsarətlə vuruşublar. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli diviziyalar Simferepolun, Odessanın, Polşanın, Çexoslovakiyanın və Yuqoslaviyanın azadlığı uğrunda döyüşlərdə fəal iştirak ediblər. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir, bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsidir.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi, onları «Xalqımızın qızıl fondu» adlandırırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır, 9 May - Qələbə bayramı ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərilir. Bu isə həmin kateqoriyadan olan insanların sosial vəziyyətinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir. Böyük Vətən müharibəsi veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdikləri qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 72 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşüblər, Qələbə günü münasibətilə onları təbrik ediblər, xatirə şəkli çəkdiriblər. Dövlətimizin başçısı və birinci xanım Həzi Aslanovun qəbirüstü abidəsi önünə əklil qoyublar, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad ediblər.

## BU NÖMRƏMİZDƏ

BÜDCƏ TAPŞIRIQLARI TAM HƏCMDƏ İCRA OLUNUB 2
MÜSTƏQİL AZƏRBAYCANIN UĞURLARININ TƏMƏL PRİNSİPİ - HEYDƏR ƏLİYEV SİYASƏTİ 3
MALİYYƏDƏ ŞƏFFAFLIQ VƏ İNKİŞAF MODELİ 4
AZƏRBAYCANA TURİST AXINI GÜCLƏNİR 5

# Büdcə tapşırıqları tam həcmdə icra olunub

2017-ci ilin yanvar-aprel ayları ərzində vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 2 milyard 256 milyon 748 min manat məbləğində vəsait ödənilərək Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz tapşırıqlarına 106,3% əməl olunub.

# Nağdsız ödəniş infrastrukturu hazırdır

Son illər Azərbaycanda keçirilən beynəlxalq və regional tədbirlərin miqyası xeyli genişlənib və nəticədə respublikamıza gələn turistlərin sayında da əhəmiyyətli artım qeydə alınıb. Ölkəmizdə keçiriləcək IV İslam Həmrəyliyi Oyunları zamanı çoxlu sayda idman heyətinin və azarkeşlərin paytaxtımıza təşrif buyurması Bakıda və bəzi digər şəhərlərdə bir sıra xidmət sahələrinin, o cümlədən müxtəlif ticarət, əyləncə, iaşə və s. obyektlərin Avropa səviyyəsinə uyğunlaşdırılmasını tələb edir. Bu baxımdan, diqqət mərkəzində olan ən mühüm məsələlərdən biri də nağdsız əməliyyatların aparılması üçün bütün obyektlərdə, xüsusilə ticarət, xidmət və iaşə obyektlərində POS-terminalların quraşdırılması və istifadəsi, bankomatların pul vəsaitləri ilə təmin edilməsidir.

Mərkəzi Bank və Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən İslam Həmrəyliyi Oyunları zamanı ölkədə quraşdırılmış bankomat və POS-terminal şəbəkəsinin sabit fəaliyyətinin təmin olunması məqsədilə ekvayrinq şirkətləri və kommersiya banklarına müvafiq tövsiyələr verilib. Mərkəzi Bankdan verilən məlumata görə, Oyunlar zamanı bankomat və POS-terminal şəbəkəsinin fasiləsiz və dayanıqlı fəaliyyətinin təmin olunması üçün zəruri tədbirlər görüləcək, bankomat şəbəkələri kifayət qədər milli və xarici valyutada nağd pul vəsaitləri ilə təchiz ediləcək, texniki baxımdan işləkliyi təmin olunacaq. Tədbirin keçirildiyi idman kompleksləri və ətraf ərazilərdə, həmçinin şəhər mərkəzində yerləşən təsərrüfat subyektlərində quraşdırılmış POS-terminalların daim işlək vəziyyətdə olması üçün monitorinqlər aparılacaq.

Hazırda paytaxt ərazisində təxminən 40 min, bölgələrdə isə 35 minə yaxın işlək POS-terminal var, bankomatların sayı isə 2500 ədədir. Dövriyyədə olan kartların sayı da əhəmiyyətli dərəcədə artaraq 5,5 milyona yaxındır. Bununla yanaşı, banklar tərəfindən POS-terminalların infrastrukturunda təmassız kartların qəbulu üçün yeni imkanlar yaradan müvafiq texniki işlər aparılıb. Bir neçə bank POS-terminallarla bağlı xüsusi korporativ kartların emissiyasına başlayıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi mobil operator və internet provayderləri, eləcə də rabitə müəssisələrinin fəaliyyətinin tam etibarlı şəkildə təmin olunması məqsədilə tədbirlər planı hazırlayıb, işçi qrup yaradılıb. Plana əsasən, Oyunlar zamanı yüksəksürətli internetin və mobil rabitənin, ATM və digər ödəniş sistemlərinin informasiya sistemlərinin fəaliyyətinin dayanıqlı təmin edilməsi, informasiya təhlükəsizliyinin gücləndirilməsi nəzərdə tutulur.

**ELBRUS**

# Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

• **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**

• **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

• birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,

• ikinci dəfə yol verdikdə **20 faizi**,

• üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

# Yaxın və uzaq gələcəyə hesablanmış inkişaf strategiyası



**Mayın 4-5-də Bakı Biznes Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş «Səmərəli islahatların uğurlu nəticələri: reallıqlar, perspektivlər» mövzusunda ikigünlük beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Universitetin rektoru, iqtisad elmləri doktoru, professor İbad Abbasov qeyd edib ki, tədbirin keçirilməsində məqsəd yerli və xarici mütəxəssisləri, alimləri, ictimai xadimləri, investorları və digər maraqlı tərəfləri mövzu ətrafında müzakirələrə dəvət etmək, innovativ fikirləri paylaşmaq və tövsiyələr hazırlamaqdan ibarətdir. Bildirilib ki, ümummilli lider Heydər Əliyevin müdrikliyi, siyasi iradəsi, uzaqgörən siyasəti nəticəsində, digər sahələrdə olduğu kimi, iqtisadiyyatda da genişmiqyaslı islahatlar həyata keçirilib, Azərbaycan nüfuzlu beynəlxalq təşkilatlara üzv olub, irimiqyaslı regional layihələrin əsas iştirakçılarından birinə çevrilib. Qazanılmış nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradıb.

«Azərbaycanın yaxın və uzaq gələcəkdə inkişaf strategiyasına dair bəzi düşüncələr» mövzusunda məruzə ilə çıxış edən Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə qeyd edib ki, bütün fəaliyyəti xalqa xidmət nümunəsi olan ümummilli lider Heydər Əliyev Azərbaycan elminin inkişafında böyük xidmətlər göstərib. Komitə sədri bu gün ölkəmizin qazandığı hər bir uğurun təməlində ulu öndər Heydər Əliyevin müəllifi olduğu, Azərbaycanın hərtərəfli inkişafına və tərəqqisinə hesablanmış inkişaf strategiyasının dayandığını vurğulayıb: «Ölkəmizdə görülmüş genişmiqyaslı işlər nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilib, dünya birliyində öz layiqli yerini tutub. Ulu öndər Heydər Əliyevin siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən inamla və böyük uğurla davam etdirilməsi nəticəsində bu gün də sürətli iqtisadi inkişaf səngimir və ölkəmizin beynəlxalq aləmdə nüfuzu artır».

Tədbirdə çıxış edən vergilər nazirinin müşaviri - Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov vergi sahəsində aparılan islahatların əsas istiqamətləri, vergi sisteminin inkişaf strategiyasının əsas missiyası, könüllü vergi əməletmələrində mövcud problemlər, vergi orqanlarında insan resurslarının inkişaf etdirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlər, sosial tərəfdaşlarla səmərəli əməkdaşlıq əlaqələri barədə məlumatları konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Digər natiqlər də ümummilli liderin Azərbaycanın inkişafı üçün gördüyü mühüm işlərdən, dövlətçiliyimizin möhkəmləndirilməsində, iqtisadiyyatımızın inkişafında əvəzsiz xidmətlərindən söz açıb, bu gün Prezident İlham Əliyev tərəfindən atılan qətiyyətlə addımlar nəticəsində Azərbaycanın davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkəyə, eyni zamanda beynəlxalq tədbirlər məkanına çevrildiyini qeyd ediblər.

Konfransda «Səmərəli islahatlarda hesabatlılığın əhəmiyyəti», «İqtisadi inkişafda elmi potensialdan səmərəli istifadə yolları», «Heydər Əliyevlə başlanan aqrar islahatlar və uğurlu inkişaf reallıqları», «Yeni mərhələdə sahibkarlığın inkişafında şəffaflıq məsələləri» və s. mövzularda məruzələr dinlənilib.

İtaliya, Rusiya, Rumıniya, Litva, Latviya, Ukrayna, Gürcüstan və digər xarici ölkələrdən dəvət olunmuş mütəxəssislər Azərbaycanın iqtisadi cəhətdən güclü bir dövlət olduğunu diqqətə çatdıraraq, ölkələrimiz arasında mövcud siyasi, iqtisadi, mədəni əlaqələrdən danışıblar.

Konfrans öz işini gənc tədqiqatçılar, doktorantlar və magistrlərin aktiv iştirakı ilə davam etdirib.

# «Vergilər» mövzusunda olimpiadaya yekun vurulub

*May ayının 5-də Vergilər Nazirliyinin Şamaxıda yerləşən Tədris Mərkəzində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş «Vergilər» mövzusunda 11-ci olimpiadanın yekun mərhələsi keçirilib.*

Qonaqlar əvvəlcə Tədris Mərkəzi və orada yerləşən Vergi Muzeyi ilə tanış olub, dərs prosesinin gedişatını izləyiblər. Sonra ölkəmizin 17 ali məktəbini təmsil edən 300-dən yuxarı tələbə və magistrant Tədris Mərkəzi tərəfindən hazırlanmış xüsusi test bazası əsasında vergilər sahəsində öz biliklərini yoxlayıblar. Nəticələr imtahan komissiyasının iştirakı və nəzarəti altında xüsusi kompüter proqramları vasitəsilə müəyyən edilib.

Vergilər nazirinin müşaviri, Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov olimpiadanın nəticələrinə yekun vuraraq bildirib ki, ənənəvi olaraq hər il keçirilən bu bilik yarışmasının təşkilində əsas məqsəd ali təhsil müəssisələrində təhsil alan tələbələrin vergi sahəsində biliklərinin artırılması, bilik səviyyəsi yüksək olan gənclərin müəyyən edilməsi, gələcəkdə vergi sahəsi üzrə mütəxəssislərin yetişdirilməsi üçün zəmin yaradılmasıdır.

ADİU-nun Elm Mərkəzinin rəhbəri, professor Zahid Məmmədov çıxış edərək qeyd etmişdir ki, o dövlət ki, güclüdür, deməli, onun güclü vergi sistemi var: «Müstəqil Azərbaycanın dayanıqlı vergi sistemi mövcuddur. Bu gün Vergilər Nazirliyinin güclü kadrları, geniş madditexniki bazası var. Bu baxımdan, təklif edərdim ki, Vergilər Nazirliyinin Tədris Mərkəzinin nəzdində «xalq məktəbləri» açılsın və vergi sahəsində tələbələrin, iş adamlarının, ictimaiyyətin maarifləndirilməsi ilə əlaqədar işlər burada davam etdirilsin».

Z.Məmmədov bildirmişdir ki, vergi olimpiadalarının qalibi gələcəkdə vergi orqanlarına imtahansız qəbul oluna bilər: «Lakin qaliblərin əksəriyyəti maliyyə və ya vergi ixtisası üzrə təhsil almadıqlarından, gələcəkdə müəyyən problemlərlə qarşılaşa bilərlər. Buna görə də yaxşı olardı ki, vergi olimpiadasının qalibləri - tələbələr, magistrlər öz istəkləri ilə ixtisaslarını dəyişə bilsinlər».

Xatırladaq ki, ulu öndərin xatirəsinə həsr olunmuş «Vergilər» mövzusunda olimpiadanın ilkin seçmə mərhələsi aprel ayının 16-da lanmış 50 test sualı üzrə 90 dəqiqə davam edib və vaxtında başa çatdırılıb. İmtahanın gedişatına vergi orqanlarının məsul şəxsləri tərəfindən nəzarət edilib və nəticələr qiymətləndirilmə üçün Vergilər Nazirliyinin Tədris Mərkəzinə verilib. Olimpiadanın ilkin mərhələsindən uğurla keçmiş 61 nəfər bakalavr və magistr yekun mərhələdə iştirak etmək hüququ qazanıblar.



Bakı şəhərinin ali məktəblərinin və Sumqayıt Dövlət Univerisitetinin tələbələri üçün Azərbaycan Dövlət İqtisad və «Azərbaycan» universitetlərində, Naxçıvan Muxtar Respublikası üzrə Naxçıvan Dövlət Universitetində, digər şəhərlər üzrə Mingəçevir Dövlət Universiteti və Gəncə Dövlət Universitetində, bir gün sonra isə Lənkəran Dövlət Universitetində keçirilib. Bu mərhələdə Bakı və Sumqayıt şəhərləri üzrə 193, Naxçıvan Muxtar Respublikasının ali məktəbləri üzrə 22, Lənkəran Dövlət Universitetindən 37, Gəncə Dövlət Universitetindən 32, Mingəçevir Dövlət Universitetində isə 37 tələbə olmaqla, ümumilikdə 321 tələbə iştirak edib. İmtahan şəffaf şəraitdə keçirilməklə nəzərdə tutulan mövzular əsasında Vergilər Nazirliyinin Tədris Mərkəzi tərəfindən hazırlanmış...

Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəhbəri Əli Həsənov bütün iştirakçılara minnətdarlığını bildirib, ən yüksək nəticə göstərmiş bakalavrlar və magistrantların, həmçinin onların müəllimlərinin adlarını elan edərək, qaliblərə təbriklərini çatdırıb. Beləliklə, imtahanın nəticəsinə əsasən, bakalavrlar arasında Zeynalabdin Cəfərov (1-ci yer, Naxçıvan Dövlət Universiteti), Muxtar Cəbrayılov (2-ci yer, Azərbaycan Universiteti), Pərvin Musayev (3-cü yer, Sumqayıt Dövlət Universiteti); magistrantlar arasında Qənbər Məmmədli (1-ci yer, Naxçıvan Dövlət Universiteti), Əmmənsə Süleymanova (2-ci yer, Naxçıvan Dövlət Universiteti), Aqil Vəliyev (3-cü yer, Azərbaycan Dövlət İqtisad Universiteti) mükafata layiq görülüblər.



## Qaliblərin təəssüratları:

**İsmayıl Bağırov,**
*Naxçıvan Dövlət Universitetinin müəllimi:*

«Vergi olimpiadasının ənənəvi olaraq hər il keçirilməsi mühüm əhəmiyyət daşıyır. Tədbirə yüzlərlə tələbə hazırlaşır ki, bu da vergi mövzusuna marağı artırır. Savadlı, öz işinin peşəkarı olan vergi işçisi kimi, vergi qanunvericiliyini bilən vergi ödəyicisi də yetişdirilməlidir. Çünki qanunvericiliyi bilən vergi ödəyicisi vergidən yayınmaq barədə düşünmür.

Bir müəllim kimi, tələbələrimdən çox razıyam. Olimpiadada 3 tələbəmiz mükafata layiq görülüb və bu, çox qürurvericidir. Tələbələrimizin yüksək nəticə göstərmələrinin başlıca səbəbi odur ki, biz dərs zamanı nəzəriyyə ilə yanaşı, praktiki tərəfə də üstünlük veririk».

**Zeynalabdin Cəfərov,**
*Naxçıvan Dövlət Universitetinin III kurs tələbəsi:*

«Keçən il də vergi olimpiadasında iştirak etmişdim və 3-cü yerə layiq görülmüşdüm. Amma bu nəticə məni qane etmədi və qarşıma məqsəd qoydum ki, növbəti olimpiadada birinciliyi əldə edim. Üzərimdə çox çalışdım və məqsədimə nail oldum. Əldə etdiyimiz uğurlarda müəllimlərimizin və izahlı vergi dərsliyinin böyük rolu var. İmtahanda 50 sualdan 49-na düzgün cavab verə bildim. Qalib olduğum üçün çox sevincliyəm».

**Qənbər Məmmədli,**
*Naxçıvan Dövlət Universitetinin magistrantı:*

«Vergi sahəsi daim dəyişir, yenilənir. Bu sahəni dərindən bilmək üçün hər an öz üzərində çalışmaq, çox oxuyub, öyrənmək lazımdır. Bu il vergi sistemini irəliyə aparacaq bir sıra dəyişikliklər edilib. Vergi Məcəlləsinə aid dərslərin izahlı formada keçilməsi bizə mövzunu daha dərindən mənimsəməyə əsas yaradır. Bu tədbirin təşkilində əməyi keçən hər kəsə təşəkkür edirik».

**Aytən NƏBİYEVA**

# Müstəqil Azərbaycanın uğurlarının təməl prinsipi - Heydər Əliyev siyasəti

**Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə möhkəm ictimai-siyasi sabitliyin, geniş quruculuğun, iqtisadi yüksəlişin, davamlı inkişafın təminatçısı olub. Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi illər dövlətçilik tariximizin şanlı səhifəsi, zəngin irsidir. Ötən əsrin 60-cı illərində məhz onun gərgin və uzaqgörən siyasəti ilə respublikamızın işıqlı və parlaq gələcəyinin möhkəm təməli qoyulmuşdur. Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gəlişi ilə ölkədə yeni ictimai-siyasi ab-hava, sağlam və dinamik sosial-iqtisadi mühit, insanlarda qurub-yaratmaq əzmi yarandı. Respublikada durğun iqtisadi həyat «qaynamağa» başladı, insanlarda işgüzarlıq, fəallıq artdı, ölkədə geniş vüsət alan islahatlar iqtisadiyyatın canlanmasına gətirib çıxardı.**

***«Ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövr ərzində Azərbaycanı zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır».***

**İlham ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

Heydər Əliyev həmişə müstəqillik amalı ilə yaşamışdır. Onun vaxtilə dediyi «Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harda olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm» sözləri müstəqillik məfkurəsinin bariz nümunəsidir. Ulu öndərin siyasi zəkası, iradəsi sayəsində müstəqil Azərbaycan dövlətçiliyinin əsası yaradıldı. Heydər Əliyev deyirdi: «Mənim yaratdığım hər bir şey mənim üçün əzizdir. Zavod da, fabrik də, elektrik stansiyaları da, yol da, körpü də, ev də, bina da, saray da - hər bir şey. Amma mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır».

Məhz buna görə də 1993-cü ildə - Azərbaycan çətin sınaq qarşısında olanda, müstəqilliyini itirmək təhlükəsi ilə üzləşəndə ulu öndər xalqın milli xilaskarı kimi hakimiyyətə gəldi. Heydər Əliyev respublikaya ikinci hakimiyyəti dövründə güclü siyasi və iqtisadi sabitliyi təmin etdi. 1995-ci ildə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizdə siyasi və iqtisadi islahatların həyata keçirilməsi üçün mühüm rol oynadı. Azərbaycanın qanunları Avropa standartlarına uyğunlaşdırıldı, dünya ölkələri ilə sıx inteqrasiya genişləndirildi, ordu quruculuğu ilə bağlı davamlı islahatlar geniş vüsət aldı, Silahlı Qüvvələrimiz formalaşdırıldı, nizami ordu yaradıldı.

Heydər Əliyev demokratik cəmiyyətin inkişafında mühüm olan bütün ali meyarları nəzərə alaraq açıq cəmiyyət, vətəndaş cəmiyyəti quruculuğu prosesində islahatların uğurla həyata keçirilməsini təmin etdi. Demokratik dəyərlərin və təsisatların təşəkkül tapması, mütəmadi şəkildə yenilənərək inkişaf etdirilməsi, siyasi partiyaların, ictimai təşkilatların geniş fəaliyyətinin təmin olunması, insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə edilməsi, vətəndaş cəmiyyəti quruculuğunun sürətləndirilməsi kimi təməl strateji istiqamətlər ulu öndərin milli siyasi kursunun əsasını təşkil etmişdir. Heydər Əliyev demokratiyanın əsas inkişaf göstəricilərindən biri olan söz və fikir azadlığına, plüralizmə geniş meydan verdi. Onun KİV-ə olan xüsusi diqqət və qayğısı nəticəsində Azərbaycanda senzura ləğv olundu, sonrakı illərdə KİV-lərin fəaliyyətini tənzimləyən qanunvericilik bazası beynəlxalq standartlara uyğunlaşdırıldı, onların müstəqilliyi inkişaf etdirildi, maddi-texniki bazası möhkəmləndirildi.

Ulu öndərin birbaşa iştirakı və rəhbərliyi ilə Azərbaycanda bazar iqtisadiyyatının tələblərinə uyğun iqtisadi islahatlar həyata keçirildi, torpaq kəndlilərə paylanıldı, özəlləşdirməyə start verildi, xarici investorların ölkəmizə sərmayə yatırmaları üçün əlverişli biznes mühiti təmin olundu. Milli azad sahibkarlığın formalaşması, sahibkarların hüquq və mənafelərinin qorunması, xüsusi mülkiyyətin üstünlüyünün təmin olunması, yerli biznesin Avropa bazarlarına çıxışı üçün əlverişli imkanlar yaradıldı.

1994-cü il sentyabrın 20-də Bakıda «Gülüstan» sarayında dünyanın məşhur neft şirkətləri ilə bağlanmış «Əsrin kontraktı» müstəqil Azərbaycan tarixində şanlı səhifə açdı. Azərbaycan neftinin dünya bazarına nəqli məqsədilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin çəkilməsinə dair beynəlxalq saziş imzalandı. Neft gəlirlərinin səmərəli istifadəsini təmin etmək məqsədilə 1999-cu ildə Dövlət Neft Fondu yaradıldı.

...Bu gün müstəqil Azərbaycan Respublikası ulu öndər Heydər Əliyevin siyasi varisi, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında yeni inkişaf mərhələsinə qədəm qoyub. Dövlətimizin başçısı İlham Əliyevin Prezident seçildiyi ötən 14 ildə respublikamız böyük nailiyyətlərə imza atıb. Azərbaycanın bu uğurlarını şərtləndirən başlıca amil respublikamızda hökm sürən sabit siyasi ab-hava, vətəndaşların hüquq və azadlıqlarının tam təmin olunması, ölkədə milli, dini və irqi tolerantlığın mövcud olmasıdır. Azərbaycanda milli azlıqlara, əcnəbilərə, müxtəlif konfessiyalara qarşı ayrı-seçkilik göstərilmir, onların hüquqları etibarlı qorunur.

Hazırda ölkəmizdə aparılan ardıcıl iqtisadi islahatlar qlobal iqtisadi çağırışlara konseptual yanaşmalarla daha da təkmilləşdirilməkdədir. Bu baxımdan Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmanla təsdiq edilmiş «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji yol xəritələri» xüsusilə önəmlidir. Yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı əhatə edir. Strateji yol xəritələri iqtisadi islahatlara uyğun kompleks tədbirlərin həyata keçirilməsini, iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılmasını təmin edəcək. Sənədin məqsədi Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və rəqabətqabiliyyətliyinin gücləndirilməsi, neftdən asılılığın aradan qaldırılması, qeyri-neft sektorunun və keyfiyyətli ixrac məhsullarının artırılması, əhalinin məşğulluq səviyyəsinin və rifahının daha da yüksəldilməsidir. Prezident İlham Əliyevin «Əsl siyasət konkret, real iş görməkdən ibarətdir» şüarı Azərbaycanın qarşıdakı illərdə də dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradır, qarşıya qoyulmuş hədəfə - dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmək məqsədinə doğru inamla aparır.

Ümummilli lider Heydər Əliyev iqtisadi siyasətin mühüm tərkib hissəsi olan vergi siyasətini həmişə diqqət mərkəzində saxlamış, vergi sisteminin kompleks inkişafı üçün uğurlu tədbirlər həyata keçirmişdir. Ulu öndərin «Əgər biz müstəqil dövlətiksə, müstəqil inkişaf etmək istəyiriksə, biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik. Buna görə də vergi orqanlarının işinə daha çox diqqət yetirməliyik», - sözləri bu gün də öz aktuallığını qorumaqdadır. Ümummilli lider Heydər Əliyevin 11 fevral 2000-ci il tarixli «Azərbaycan Respublikası Vergilər Nazirliyinin yaradılması haqqında» fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyi ləğv edilmiş, onun bazasında ölkədə dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam həcmdə yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı - Vergilər Nazirliyi yaradılmışdır. Azərbaycanda vergi sisteminin strukturu və vergi sahəsində milli qanunvericilik bazası formalaşdırılmış, 2000-ci ildə Vergi Məcəlləsinin qəbul edilməsi bu sahədə mövcud olan problemlərin aradan qaldırılmasında mühüm rol oynamışdır.

2001-ci ilin yanvar ayının 1-dən qüvvəyə minən Vergi Məcəlləsi vergi sistemində aparılan islahatlara mühüm təkan verməklə dövlət-sahibkar münasibətlərində yeni bir yanaşmanın əsasını yaratdı. Məhz həmin dövrdən etibarən həyata keçirilən islahatlar nəticəsində vergilərin sayı və dərəcələrinin optimal səviyyəsi müəyyənləşdirilmiş, ölkədə vergi yükünün aşağı salınması, vergi menecmentinin müasirləşdirilməsi istiqamətində bir sıra uğurlar əldə olunmuşdur. Bu illər ərzində bütövlükdə liberal və rəqabətqabiliyyətli mükəmməl vergi sistemi formalaşdırılmış, Azərbaycanda sərmayəçilər üçün cəlbedici, sadə və eyni zamanda, şəffaf və sabit bir vergi sistemi qurulması istiqamətində əhəmiyyətli tədbirlər görülmüşdür.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən vergi siyasəti nəticəsində vergi qanunvericiliyi mütəmadi olaraq təkmilləşdirilmiş, müəyyən dəqiqləşmələr aparılmışdır. Dövlət başçısının vergi sistemini təkmilləşdirmək, vergitutma bazasını genişləndirmək, vergi xidmətini müasir Avropa standartlarına çatdırmaq haqqında verdiyi tapşırıqlar vergi sisteminin inkişafında xüsusi rol oynamışdır. «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramının (2005-2007-ci illər)» uğurla həyata keçirilməsi nəticəsində vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsinə nail olunmuş, vergidən yayınma halları ilə mübarizə gücləndirilmiş, vergilərin məcburi ödənilməsi sistemi təkmilləşdirilmiş, vergi orqanlarında beynəlxalq standartlara uyğun idarəetmə sistemi inkişaf etdirilmiş, müasir informasiya-kommunikasiya sistemləri yaradılmışdır. Vergi inzibatçılığının modernləşdirilməsi prosesi sonrakı illərdə də davam etdirilmiş, vergi xidmətində informasiya texnologiyalarının geniş tətbiqi vergi inzibatçılığının asanlaşmasına, ona çəkilən xərclərin əhəmiyyətli şəkildə azalmasına imkan vermişdir.



> Mənim yaratdığım hər bir şey mənim üçün əzizdir. Zavod da, fabrik də, elektrik stansiyaları da, yol da, körpü də, ev də, bina da, saray da - hər bir şey. Amma mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır.
>
> Heydər ƏLİYEV

Vergi ödəyicilərinə xidmətin genişləndirilməsi və xidmətlərin keyfiyyətinin artırılması istiqamətində görülən tədbirlərdən biri də 2011-ci ildə qəbul edilmiş «2011-2015-ci illərdə vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı Konsepsiyası» olmuşdur. Konsepsiyanın həyata keçirilməsi nəticəsində vergi ödəyiciləri ilə əlaqələr partnyorluq və qarşılıqlı əməkdaşlıq prinsipləri əsasında, daha müasir informasiya texnologiyalarından istifadə etməklə qurulmuş, vergi qanunvericiliyinə könüllü əməletmə prinsipi önə çəkilmişdir. Mobil texnologiyaların imkanlarına söykənən «Asan İmza» layihəsi mobil telefondan istifadə olunmaqla dünyanın istənilən yerindən sahibkara müqavilələr imzalamağa, vergi öhdəliklərini idarə etməyə və yerinə yetirməyə imkan verir. Ölkəmizin bu təcrübəsi ötən il Avropa Parlamentində də təqdim edilmişdir. «Asan İmza» və «E-audit» kimi mühüm layihələr yalnız regionda deyil, ümumiyyətlə, postsovet məkanında ilk olaraq məhz Azərbaycanın vergi sistemində reallaşdırılmış və bu, bir çox ölkələrin marağına səbəb olmuşdur.

Vergi sistemində aparılan islahatların əsas istiqamətlərindən biri qanunvericiliyin davamlı olaraq təkmilləşdirilməsidir. Ötən illərdə Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərin əsas istiqamətləri vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi güzəştlərinin minimuma endirilməsi, vergidən yayınma hallarına qarşı səmərəli mübarizənin təşkili, əlverişli investisiya mühitinin yaradılmasından ibarət olmuşdur.

Prezident İlham Əliyevin 2016-cı ilin avqust ayında imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamına uyğun olaraq vergi sistemində yeni islahatlar həyata keçirilmişdir. 2017-ci il yanvarın 1-dən qüvvəyə minən «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanun vergi sistemində aparılan islahatların davamı kimi mühüm əhəmiyyət kəsb etməkdədir. Əlavə və dəyişikliklərin əsas məqsədi sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafı üçün daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın formalaşdırılması, nağdsız əməliyyatların həcminin və vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulmasıdır.

Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi» təsdiq olunmuş və sənəddə əlverişli biznes mühitinin inkişaf etdirilməsi və səmərəli vergi sisteminin təşviqi başlıca məqsəd kimi müəyyənləşdirilmişdir. Vergilər Nazirliyi 5 istiqamət üzrə əsas icraçı, 9 strateji yol xəritəsində 34 istiqamət üzrə isə digər icraçı qismində müəyyən edilmişdir. Strateji yol xəritələri üzrə Vergilər Nazirliyinin icraçı olduğu Tədbirlər Planında isə əsas istiqamətlər büdcə-fiskal siyasətin həyata keçirilməsi və ortamüddətli xərclər çərçivəsinin yaradılması, kiçik və orta sahibkarlığın inkişafında stimullaşdırıcı vasitələrin tətbiqi, biznesin asanlaşdırılması və beynəlxalq reytinqlərdə mövqelərin yaxşılaşdırılması, səmərəli vergi sisteminin təşviq edilməsi, xarici investisiya strategiyasının həyata keçirilməsi, statistika infrastrukturunun təkmilləşdirilməsi ilə bağlıdır. Nəzərdə tutulan bu tədbirlərin həyata keçirilməsi Azərbaycanda daha əlverişli və çevik vergi siyasəti yolu ilə iqtisadiyyatın çoxşaxəli və dayanıqlı inkişafının təmin olunmasına öz töhfəsini verəcəkdir.

> Ulu öndər Heydər Əliyevin «Əgər biz müstəqil dövlətiksə, müstəqil inkişaf etmək istəyiriksə, biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik. Buna görə də vergi orqanlarının işinə daha çox diqqət yetirməliyik», - sözləri bu gün də öz aktuallığını qorumaqdadır

**Anar ƏLİYEV**


## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Elektron qaimə-faktura

***Pərakəndə ticarət fəaliyyəti göstərən şəxslər malları komissiyaya götürən zaman elektron qaimə-faktura əldə etməlidirlərmi?***

Vergi Məcəlləsinin 16.1.11-6-cı maddəsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı Məcəllədə nəzərdə tutulmuş qaydada qaimə-faktura və ya elektron qaimə-faktura təqdim edilməlidir.

«Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası»nın 3.9-cu bəndində göstərilir ki, pərakəndə ticarət fəaliyyəti göstərən şəxslər tərəfindən komissiyaya qəbul edilmiş mallar «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirilir və malların komissiyaya qəbul edilməsi ilə bağlı tərəflər arasında müqavilə bağlanılır.

**Qeyd olunanlara əsasən:** Malların komissiyaya verilməsi malların təqdim edilməsi hesab edilmədiyindən komitent tərəfindən komisyonçuya verilmiş mallara görə elektron qaimə-faktura təqdim edilmir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Yanvar-aprel aylarında Dövlət Gömrük Komitəsi tərəfindən büdcəyə **750 milyon** manatdan çox vəsait köçürülüb.
- Əmlak Məsələləri Dövlət Komitəsi iyunun 6-da keçiriləcək növbəti hərraca ümumilikdə **183** dövlət əmlakı çıxarıb. Onlardan **21**-i səhmdar cəmiyyəti, **63**-ü kiçik dövlət müəssisəsi və obyekti, **95**-i istifadəsiz qeyri-yaşayış sahəsi, **4**-ü isə nəqliyyat vasitəsidir.
- Məlumat Hesablama Mərkəzinin Milli Sertifikat Xidmətləri Mərkəzi tərəfindən aprel ayında **3486** elektron imza sertifikatı verilib ki, onların **766**-sı dövlət qurumlarının, **2612**-si hüquqi şəxslərin, **108**-i isə fiziki şəxslərin payına düşür.
- Türkiyə Azərbaycanın ən çox investisiya yatırdığı ölkədir və indiyədək bu qardaş ölkəyə **9 milyard** dollar investisiya qoyulub.

# Maliyyədə şəffaflıq və inkişaf modeli

**Bakıda şəffaflıq və inkişaf devizi altında keçirilən «FIF-2017» Maliyyə və İnvestisiyalar Forumu bu sahədə fəaliyyət göstərən böyük holdinq və şirkət əməkdaşları tərəfindən könüllü şəkildə sosial məsuliyyət layihəsinin təqdimatı ilə bağlı olub.**

Forumda qonaq spiker qismində iştirak edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı belə tədbirlərin «Milli iqtisadiyyat və iqtisadiyyatın Strateji Yol Xəritəsi»ndə nəzərdə tutulmuş məsələlərin biznes ictimaiyyətinə açıqlanması və maarifləndirilməsi istiqamətində böyük rolunu qeyd etdi və missiyanın müvəffəqiyyətlə yerinə yetiriləcəyinə inandığını vurğuladı. Bildirdi ki, 2017-ci ilin birinci rübündə artıq iqtisadi artımın ilkin nəticələri özünü göstərməkdədir: «Bu, real sektorun, qeyri-ticari deyil, bilavasitə ticari sektorun hesabınadır. Birinci rübdə Azərbaycanın qeyri-neft ixracı 11,8 faiz artıb. Bu, təkcə qeyri-neft sektoru məhsullarına aid deyildir, ixracatla məşğul olan şirkətlərin sayı da 20% çoxalıb. Real sektordan gələn bu iki müsbət siqnal islahat proqramının ilkin nəticələridir».

«Gilan Holdinq» FMCG-nin maliyyə direktoru Niyazi Abbasov bildirdi ki, maliyyə sahəsində islahatların hökumətin prioritetləri sırasında olması, vergi sistemində baş verən son dəyişikliklər maliyyə əməliyyatlarında şəffaflığın təmin edilməsini vacib məqsəd kimi qarşıya qoyur: «Maliyyə sahəsində inkişafın dəstəklənməsində maarifləndirməyə ehtiyac var. Şirkətlərarası, dövlət və özəl biznes subyektləri arasında konsktruktiv əlaqələrin, bilgi paylaşımının olması ümumilikdə sektora çox müsbət təsir edəcək. Məqsədimiz maliyyə və vergi sahəsində maarifləndirmə aparmaqdır».

Maliyyə Bazarlarına Nəzarət Palatasının böyük analitiki Orxan İsmayılov nəzərə çatdırdı ki, Strateji Yol Xəritəsində təmsil etdiyi qurumun üzərinə xüsusi vəzifələr qoyulmuşdur. O, maliyyə sahəsindəki islahatların həlli yolları barədə tədbir iştirakçılarına məlumat verərək qeyd etdi ki, xarici investisiyaların Azərbaycana təşviqi, yerli investisiya mühitinin inkişaf etdirilməsi, xarici investorların milli iqtisadiyyata cəlb olunması və digər mühüm iqtisadi hədəflər qarşıya ən prioritet məqsəd kimi qoyulmuşdur.

Türkiyənin «Meditera Kapital» şirkətinin ortağı və partnyoru Orhan Ayanlar çıxışını «Orta və kiçik sahibkarlığın inkişafında özəl sərmayə şirkətlərinin rolu və iqtisadiyyatın katalizatoru» mövzusuna həsr etdi. «Azfinans İnvest» investisiya şirkətinin direktor müavini İntiqam Səfərəliyev isə diqqəti maliyyə bazarlarının inkişafında investorların maliyyə bazarlarına çıxışının təmin edilməsində və imkanların şaxələndirilməsində investisiya şirkətlərinin roluna yönəltdi.

Forumda KPMG-nin (Klynveld Peat Marwick Goerdeler) Azərbaycanda idarəedici partnyoru Vüqar Əliyev, «Gilan Holdinq»in nümayəndəsi Fuad Kərimov, Azərbaycan Sənaye-Sığorta şirkətinin idarə heyətinin sədri Uğur Çağlar, «Sinerji Qrup» şirkətinin direktor müavini Fərid Musayev, «İnvestAz»ın strateji inkişaf üzrə direktor müavini Orxan Bağırov çıxış edərək mövzu ilə bağlı rəy və təkliflərini ifadə etdilər.

Forumun «Vergi siyasəti və şəffaf hesabatlılıq» mövzusuna həsr edilmiş panel iclasını idarə edən «Azərsun Holding»in müşahidə şurası sədrinin maliyyə və vergi məsələləri üzrə müşaviri Emin İsmayılov bu forum sayəsində dövlət və özəl biznes subyektləri arasında konstruktiv əlaqələrin, bilgi paylaşımının ümumilikdə sektora müsbət təsir edəcəyinə əminliyini bildirdi. «Paşa inşaat» MMC nin vergi meneceri Azad İsmayılov, «PwC Azerbaijan» şirkətinin vergi məsələləri üzrə direktoru Arif Quliyev, Azərbaycan Sənaye-Sığorta şirkətinin maliyyə məsələləri üzrə idarə heyətinin üzvü Rəşad Məmmədov ölkədə aparılan vergi islahatlarının istiqamətləri, vergi siyasəti və şəffaf hesabat, uçotlaşdırma, vergi öhdəliyinin əvvəlcədən müəyyən edilməsi, transfer qiymətlərinin təyini kimi aktual mövzularla çıxış etdilər.

Tədbirdə çıxış edən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanov bildirdi ki, Vergi Məcəlləsinə edilmiş əsas dəyişikliklər 4 bölmədən - vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi ödəyicilərinin hüquqlarının artırılması, vergitutma bazasının genişləndirilməsi və vergi yükünün azaldılmasından ibarətdir: «Dövlət vergi siyasətinin əsas hədəflərindən biri cəlbedici investisiya mühiti yaratmaq, sahibkarlıq üçün əlverişli şərait və vergi yükünün optimallaşdırılmasıdır. Bu vaxtadək Vergilər Nazirliyinin təklifi ilə Vergi Məcəlləsinə bir sıra dəyişikliklər edilib. Sonuncu dəyişikliyin əsas mahiyyəti vergi ödəyicilərinə xidmətin səviyyəsinin yüksəldilməsi və uçot siyasətinin təkmilləşdirilməsi ilə bağlıdır. Vergi inzibatçılığının əsasında uçot siyasətinin təkmilləşdirilməsi durur. Burada e-qaimə-fakturaların tətbiqi, e-auditin dairəsinin genişləndirilməsi, kənd təsərrüfatı məhsullarının, emal və sənaye, istehsal siyasətlərinin müəyyən edilməsi, fiziki şəxslərin vergi öhdəliyində aylıq sabit vergi öhdəliyinin müəyyənləşdirilməsi, torpaqların təqdim edilməsi ilə bağlı sabitləşdirilmiş şəkildə notarius qaydasında mənbədən vergi tutulması qaydaları, güzəştli vergi əməliyyatlarında səmərəli vergi mexanizminin tətbiqi məsələləri əsas prioritetdir».

**Dövlət vergi siyasətinin əsas hədəflərindən biri cəlbedici investisiya mühiti yaratmaq, sahibkarlıq üçün əlverişli şərait və vergi yükünün optimallaşdırılmasıdır**

**Fəxriyyə İKRAMQIZI**

# Müəllim və tələbələrlə görüş

12 saylı Ərazi Vergilər Departamentinin əməkdaşları ilə Gəncə Dövlət Universitetinin iqtisadiyyat və idarəetmə fakültəsinin müəllim və tələbələri ilə görüş keçirilmişdir. İştirakçıların nəzərinə çatdırılmışdır ki, vergi mədəniyyətinin artırılması, vergi qanunvericiliyinə edilmiş dəyişikliklər və vergilər sahəsində tətbiq olunan yeniliklər iqtisadi inkişafa xidmət edir. Vergi mədəniyyətinə, şəffaflığa və könüllü əməletməyə nail olunması Vergilər Nazirliyinin qarşısında duran prioritet məsələlərdəndir. Buna görə də vergi ödəyicilərinin maarifləndirilməsi çox vacibdir.

Tədbir zamanı vergi ödəyicilərinin qeydiyyatı, paytaxt Bakıda təşkil olunan ticarət festivalları, eləcə də «Tax free» sistemi, nağdsız hesablaşmalar, sadələşdirilmiş vergi üzrə sabit məbləğin tətbiq edilməsi və şəffaf vergi partnyorluğu haqqında geniş məlumat verilmişdir.

Universitetin müəllim və tələbələrinə 2017-ci ilin dövlət büdcəsinin gəlirləri və xərcləri haqqında, habelə «Vergilər» mövzusunda keçirilən 11-ci Olimpiadanın 2-ci mərhələsi barədə əlavə məlumatlar da verilmişdir.

Sonda müəllim və tələbələri maraqladıran suallar cavablandırılmışdır.

# Əməkdaşlığın kəsişmə nöqtəsi: kommersiya qurumlarının qeydiyyatı

İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərinin nümayəndələrinin iştirakı ilə «Əməkdaşlığımızın kəsişmə nöqtəsi: kommersiya qurumlarının qeydiyyatı» mövzusunda seminar təşkil edilmişdir. Tədbirdə ticarət reyestrinin əhəmiyyəti, ticarət əlaqələrinin davamlı inkişafında ticarət reyestr məlumatlarının rolu, kommersiya qurumlarının qeydiyyatı təcrübəsi üzrə beynəlxalq tendensiyalar, təşkilata üzv dövlətlərin kommersiya qurumlarının qeydiyyatı ilə bağlı problemlərə ümumi baxış, şirkətlərin xarici ticarət fəaliyyətində ticarət reyestrinin yeri mövzularında müzakirələr aparılmışdır. Seminar zamanı Azərbaycan, Türkiyə, Gürcüstan, Albaniya nümayəndələri təmsil etdikləri ölkələrin kommersiya qurumlarının qeydiyyat sistemləri, islahatlar və onların nəticələri, xarici investisiyalı qurumların yaradılması və formaları ilə bağlı təqdimatlar etmişlər.

Seminarda ölkəmizi Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin direktoru Samir Seyidəhmədli təmsil etmişdir.



# «ASAN imza» mobil hökumətin açar komponentidir

*Əl imzası ilə bərabər hüquqi qüvvəyə malik «ASAN imza»nın üstün cəhəti smart kartın, onun oxunması üçün əlavə qurğuların və proqram təminatının istifadəsinə ehtiyacın olmamasıdır. «ASAN imza» müntəzəm şəkildə «Made in Azerbaijan» brendi kimi müxtəlif beynəlxalq tədbirlərdə təqdim edilir və artıq bir sıra dövlət və beynəlxalq təşkilatlar da bu innovativ texnologiya ilə maraqlanırlar.*

«ASAN imza» Vergilər Nazirliyi tərəfindən 2013-cü ildən tətbiq edilir. Bu xidmət imza sahibinə şəxsiyyətini təsdiq etmək və sənədlərə rəqəmsal imza atmaq imkanı yaradır, mövcud e-xidmətlərdən istifadəni mümkün edir, hər yerdə dövlət və özəl elektron xidmətlərdən istifadə imkanı yaradır. Mobilliyi və istifadədə rahatlılığı sayəsində «ASAN imza» vətəndaşlar arasında və biznes mühitində kifayət qədər populyarlıq əldə edib və mobil hökumətin açar komponenti hesab olunur. Bundan əlavə, Azərbaycanın qeyri-rezidentləri üçün fəaliyyətə başlayan «em-Residency» proqramı sayəsində «ASAN imza»dan hamının istifadə imkanı olacaq. Xüsusilə xaricdə fəaliyyət göstərərək Azərbaycanda biznes qurmağa, ölkəyə investisiya qoymağa və lokal onlayn xidmətlərdən daha geniş istifadə etməyə çalışan hər kəs bundan faydalana biləcək.

Bu gün «ASAN imza» əsasən dövlət xidmətlərinin qanuniləşdirilməsi zamanı istifadə edilir. Bununla yanaşı, bir çox qabaqcıl banklar da öz internet və mobil bankçılıq sistemlərinə «ASAN imza» texnologiyasını inteqrasiya ediblər, bu isə bankların müştərilərinə onlayn tranzaksiyaların həyata keçirilməsində təhlükəsiz mühit yaratmış olur. «ASAN imza» «Şəxsi kabinet»lərə, ödəniş platformalarına, sığorta və digər onlayn sistemlərə giriş üçün universal və daha təhlükəsiz identifikator kimi əvəzedilməzdir.

Ölkə üzrə 500-dən çox elektron xidmətdə bu xidmətdən istifadə olunur. Hazırda elektron vergi bəyannamələrinin təqdim edilməsi, əmək müqavilələrinin elektron qeydiyyatı, müxtəlif məhsulların və nəqliyyat vasitələrinin gömrükdə bəyan edilməsi, ali təhsil müəssisələrində tələbələrin onlayn qeydiyyatının aparılması, internet və mobil bankçılıq kimi müxtəlif xidmətlər «ASAN imza» vasitəsilə reallaşdırılır.




Azərbaycanda fəaliyyət göstərən hər üç mobil operator tərəfindən abunəçilərə «ASAN imza» mobil identifikasiya xidməti təqdim edilir. Mobil operator tərəfindən üç növ - fiziki şəxslər üçün elektron imza sertifikatları, hüquqi və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün elektron imza sertifikatları və dövlət qulluqçuları üçün «ASAN imza» SİM kartı təqdim olunur. Fiziki şəxslər üçün elektron imza kartı şəxsi istifadə üçün nəzərdə tutulub. Hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, həmçinin dövlət qulluqçuları üçün nəzərdə tutulan elektron imza sertifikatları isə kommersiya və ya dövlət təşkilatını təmsil etmək və onun adından çıxış etmək səlahiyyətləri verir. Sertifikatların - şəxsi, iş, dövlət və bələdiyyə növləri var.




***Hazırda elektron vergi bəyannamələrinin təqdim edilməsi, əmək müqavilələrinin elektron qeydiyyatı, müxtəlif məhsulların və nəqliyyat vasitələrinin gömrükdə bəyan edilməsi, ali təhsil müəssisələrində tələbələrin onlayn qeydiyyatının aparılması, internet və mobil bankçılıq kimi müxtəlif xidmətlər «ASAN imza» vasitəsilə reallaşdırılır***

Bu ilin birinci rübü ərzində 15.222 «ASAN imza» sertifikatları verilib ki, onlardan da 7818-i şəxsi, 6906-sı iş, 498-i dövlət və bələdiyyə tiplidir. Ümumilikdə isə 2013-cü ilin iyulundan bu il mayın 1-dək 301.700 sertifikat verilib: onlardan 149.957-si şəxsi, 141.159-u iş, 10.584-ü dövlət və bələdiyyə tiplidir.

**Aytən NƏBİYEVA**

# Azərbaycana turist axını güclənir

## *Ticarət festivallarının təşkili turizm sektorunun stimullaşdırılmasına mühüm töhfə verir*




Ölkəmizdə turizm sektorunun inkişafının davamlılığını təmin etmək məqsədilə mühüm proqram və layihələr icra olunur, qanunvericilik təkmilləşdirilir, dövlətin dəstəyi ilə müvafiq infrastruktur yaradılır. Bunun nəticəsində ölkəyə gələn turistlərin sayı ildən-ilə artır. 2016-cı ildə ölkəmizə gələn əcnəbilərin sayı əvvəlki illə müqayisədə 12,1 faiz artaraq 2 milyon 248,8 min nəfər təşkil edib. Azərbaycana səfər edən şəxslərin ümumi sayında qonşu ölkələrdən gələnlərin xüsusi çəkisi daha çoxdur. Onların 33,1 faizi Rusiya Federasiyası, 22,5 faizi Gürcüstan, 14 faizi Türkiyə, 11,1 faizi İran, 19,3 faizi isə digər ölkələrin vətəndaşlarıdır.

2015-ci illə müqayisədə 2016-cı ildə ölkəmizə gələn bir sıra xarici ölkə vətəndaşlarının sayında daha çox artım müşahidə edilib. Məsələn, Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı 22 dəfə, Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 10,2 dəfə, Qətər vətəndaşlarının sayı 5,5 dəfə, İran vətəndaşlarının sayı 66,2 faiz, Misir vətəndaşlarının sayı 51,8 faiz, Çin vətəndaşlarının sayı 44,5 faiz artıb. Viza rejiminin sadələşdirilməsi ölkəyə turist axınının artmasına müsbət təsir edir. Azərbaycan müxtəlif sərgilərə qatılır, dünya televiziyalarında ölkəmizin turizm imkanları təbliğ olunur. Bu da öz növbəsində respublikamıza turistlərin marağını, diqqətini artırır.

Prezident İlham Əliyevin 2016-cı il 1 sentyabr tarixində imzaladığı «Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» sərəncamı isə bu sektorun gələcək inkişafı üçün yeni bir mərhələ hesab olunur. Sərəncama uyğun olaraq həyata keçiriləcək tədbirlərdən biri də paytaxt Bakıda ticarət festivallarının («shopping festival») təşkilidir. Məqsəd respublikanın turizm və iqtisadi potensialının yüksəldilməsi, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi ilə ölkənin ticarət dövriyyəsinin artırılmasının stimullaşdırılmasıdır. Həmçinin, ticarət festivalları vergi sisteminin təşviqi, fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması sisteminin tətbiqi ilə vergi inzibatçılığının daha da təkmilləşdirilməsini, rezident və qeyri-rezident vergi ödəyicilərinin xidmət sisteminin inkişaf etdirilməsini nəzərdə tutur. Dövlət başçısının 20 fevral 2017-ci il tarixli fərmanı ilə ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən ölkə ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması qaydası təsdiq edilib. Fərmana uyğun olaraq, Vergilər Nazirliyi ticarət festivallarının operatoru kimi ƏDV-nin qaytarılması ilə məşğul olur, bu sahədə proqram təminatının, vahid məlumat bazasının yaradılmasını və idarə olunmasını təmin edir. Ticarət festivalları dövründə alınan mallara görə ƏDV-nin qaytarılması yalnız bir elektron vergi hesab-fakturası üzrə malların dəyəri (ƏDV ilə birlikdə) 100 manatdan çox olduğu hallarda təmin edilir.

> Ticarət festivalları vergi sisteminin təşviqi, fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması sisteminin tətbiqi ilə vergi inzibatçılığının daha da təkmilləşdirilməsini, rezident və qeyri-rezident vergi ödəyicilərinin xidmət sisteminin inkişaf etdirilməsini nəzərdə tutur

Onu da qeyd edək ki, ticarət festivallarının təşkili barədə bir sıra qanunvericilik aktları təsdiq olunub və bu istiqamətdə müvafiq işlər davam etdirilir. Bu günlərdə Milli Məclisdə «Turizm haqqında» yeni qanun layihəsi millət vəkillərinin müzakirəsinə çıxarılıb. Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli layihə barədə məlumat verərək bildirib ki, bu sənəd Azərbaycan Respublikasında turizm sahəsində dövlət tənzimlənməsi, turizmin dövlət idarəetməsi və dövlət nəzarəti, turizm ehtiyatları, turizm fəaliyyətinin təşkili, turizm sahəsində təhlükəsizlik, maliyyə mənbələrinin təsnifatı, investisiya qoyuluşu, bu sahənin digər üsullarla stimullaşdırılması, sığorta və məlumatlandırma məsələləri ilə bağlı münasibətləri tənzimləyir. Qanun layihəsinin iki ilə yaxın müddətdə hazırlandığını deyən H.Rəcəbli bildirib ki, bununla bağlı 10-dək ölkənin təcrübəsi öyrənilib. Bu sektorun stimullaşdırılması məqsədilə qanun layihəsində bir sıra müddəalar nəzərdə tutulub.

Yeni qanun layihəsinin əhəmiyyətinə toxunan mədəniyyət və turizm naziri Ə.Qarayev bildirib ki, elektron turizm xidmətlərinin istifadəsinə böyük önəm verilməlidir. Qanunda yeni turizm zonalarının yaradılması və idarə edilməsi, xidmətdə müasir beynəlxalq standartların tətbiqi, tədris sisteminin formalaşdırılmasına dair yeniliklər mövcuddur. Turizm Dövlət Reyestrinin yaradılması isə bu sahədə dələduzluğun qarşısını alacaq, nəzarət funksiyasını tam şəffaf həyata keçirməyə imkan verəcək.

Müzakirələrdən sonra «Turizm haqqında» qanun layihəsi səsə qoyularaq qəbul edilib.

**Rəşad SADIQOV**

## BİR CÜMLƏ - BİR XƏBƏR

İyunun 8-də Bakıda Azərbaycan-Avropa İttifaqı biznes-forumu keçiriləcək.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə ISESCO arasında anlaşma memorandumu imzalanıb.

Yeni AsanDoc.az portalı istifadəyə verilib.

Azərbaycan Respublikası Auditorlar Palatası ilə Beynəlxalq Təlim və Layihə Mərkəzi arasında əməkdaşlıq sazişi imzalanıb.

Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyasının təşkilatçılığı ilə mayın 19-da «Maliyyə sektorunda informasiya texnologiyaları risklərinin idarə edilməsi» mövzusuna həsr olunan «Risklərin İdarəedilməsi Forumu-2017» keçiriləcək.

«Cənub Qaz Dəhlizi» Qapalı Səhmdar Cəmiyyəti ilə Asiya İnkişaf Bankı arasında «Şahdəniz» qaz-kondensat yatağının işlənməsi layihəsinin dəstəklənməsi məqsədilə 500 milyon ABŞ dolları məbləğində kreditin ayrılmasına dair müqavilə və zəmanət sazişi imzalanıb.

# Azad ticarət zonası iqtisadiyyatın inkişafına töhfə verəcək

Azərbaycanda yeni yaradılan azad ticarət zonasında (ATZ) bu il ilk istehsal müəssisəsinin fəaliyyətə başlaması nəzərdə tutulur. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının əməkdaşı Tural Əliyev bildirib ki, xarici investorların liman ərazisində formalaşdırılan ticarət zonasına marağı böyükdür və hazırda iş adamlarının təklifləri qiymətləndirilir. Yaxın müddətdə ərazidə iqtisadi layihələrin həyata keçirilməsi mümkün olacaq. Dəniz Ticarət Limanın məsləhətçisi seçilmiş Birləşmiş Ərəb Əmirliklərinin «Economic Zones World» şirkəti xarici sərmayəçilərlə birgə azad ticarət zonasının iqtisadi xəritəsini nəzərdən keçirir. Sənəddə bu iqtisadi modelin yaradılmasında tətbiq olunacaq güzəştli vergi, gömrük rejimi, nəqliyyat-logistika və ixrac tarifləri, digər güzəştlərlə bağlı zəruri məsələlər öz əksini tapacaq. Plana əsasən, layihələndirmə işləri 2017-ci ilin ikinci yarısında başa çatacaq.

İqtisadiyyat Nazirliyinin Sənaye şöbəsinin müdiri Murad Abdullayevin sözlərinə görə, ATZ tipli xüsusi iqtisadi zonanın Qaradağ rayonunun Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində yaradılması yaxın illərdə əraziyə cəlb olunan xarici investiyaların artmasına müsbət təsir göstərəcək. Bu ərazidə sənaye və yüksək texnologiyalar parklarının yaradılması, maşınqayırma, nəqliyyat, enerji, tikinti sənayesi müəssisələrinin inşa olunması ticarət zonasına olan marağı daha da artırır. Azərbaycan hökuməti bu cür iqtisadi vasitələrlə ölkəmizdə sahibkarlığın və iqtisadiyyatın inkişafını sürətləndirmək məqsədi daşıyır. ATZ modelinə əsasən, ticarət limanı ərazisində nəqliyyat və logistika infrastrukturu qurulacaq, neft-kimya və farmasevtik klasterlər yaradılacaq, müxtəlif çeşiddə malların istehsalı, qablaşdırılması, markalanması və s. işlər görüləcək. Layihənin həyata keçirilməsi iqtisadiyyatın davamlı inkişafı və rəqabət qabiliyyətinin artırılması, Azərbaycan Respublikasının logistika və nəqliyyat mərkəzi kimi mövqeyinin gücləndirilməsi və ölkədə çoxşaxəli nəqliyyat infrastrukturunun formalaşmasına səbəb olacaq. Layihə yeni iş yerlərinin yaradılması baxımından da mühüm əhəmiyyət kəsb edir. İqtisadçı-ekspert Ruslan Atakişiyev hesab edir ki, bu cür ərazilər yerli və xarici sahibkarlar üçün əlverişli iqtisadi şəraitə malik olan və digər ərazilərə münasibətdə xüsusi hüquqi rejimli məhdud sahələrdir. Ərazidə sadələşdirilmiş gömrük və vergi prosedurları həyata keçirilir, istehsal olunan mallar milli gömrük xaricində olan obyektlər kimi qəbul edilir və bu səbəbdən də adi gömrük nəzarətinə və vergitutmaya cəlb edilmir. Azad ticarət zonalarında iqtisadi proseslərə dövlət müdaxiləsinin miqyası azalır, burada fəaliyyət göstərən şirkətlərin bu və ya digər formada ölkə qanunvericiliyində daha az öhdəlikləri olur: «Son illər ölkəmizdə sahibkarlığı dəstəkləmək və fəaliyyətini stimullaşdırmaq, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və qeyri-neft sənayesinin ixracının stimullaşdırılması məqsədilə güzəştli vergi rejimi həyata keçirilir. Bu siyasətin tərkib hissəsindən biri də xüsusi iqtisadi və ticarət zonalarının bəzi vergilərdən azad olunmasıdır. Azad ticarət zonasında fəaliyyət göstərən yerli və xarici investorları daha da həvəsləndirmək, bu sektora yeni sərmayəçiləri cəlb etmək məqsədilə ötən il vergi qanunvericiliyində bir sıra mühüm dəyişikliklər aparılıb. Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə əsasən, xüsusi tipli azad ticarət zonalarında fəaliyyət göstərən şəxslər əmlak və torpaq vergisini ödəməkdən azaddırlar. Eyni zamanda, sahibkarlar bu ərazidə bir sıra sənaye mallarının təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsinə görə vergilərdən azad olunub. Bu sahəyə tətbiq olunan vergi güzəştləri həm daxili, həm də xarici investisiyalar üçün əlverişlidir».



> Azad ticarət zonasında fəaliyyət göstərən yerli və xarici investorları daha da həvəsləndirmək, bu sektora yeni sərmayəçiləri cəlb etmək məqsədilə ötən il vergi qanunvericiliyində bir sıra mühüm dəyişikliklər aparılıb

Azad ticarət zonasının yerləşdiyi Bakı Dəniz Ticarəti Limanı hazırda Azərbaycanın tranzit imkanlarının dünyaya təqdim olunması üçün ən strateji məkandır və bu sahədə səmərəli vergi-fiskal siyasətin həyata keçirilməsi məqsədilə 2016-cı ildə Vergilər Məcəlləsinə yeni dəyişikliklər edilib. Dəyişikliyə əsasən, Azərbaycan ərazisindən xarici dövlətlərə daşınan mallar 2016-cı ilin iyun ayının 1-dən etibarən 3 il müddətinə yol vergisindən azad olunub. Bu güzəştlər həm dəmir yolu, həm də yük avtomobilləri və digər avtonəqliyyat vasitələri ilə daşınan yüklərin ixracına tətbiq edilir. Bu addım ölkədən xarici dövlətlərə məhsul ixrac edən sahibkarların daşınma xərclərinin aşağı salınması və onların ixrac imkanlarının yaxşılaşmasına ən böyük dəstək hesab oluna bilər. Ümumilikdə isə vergi güzəştləri azad ticarət zonasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının və ixracının güclənməsinə imkan verəcək.

**Elbrus CƏFƏRLİ**

# Lisenziyaların və icazələrin alınması qaydaları

«Lisenziyalar və icazələr haqqında»Qanun(maliyyə bazarları sahəsində istisna olmaqla) Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı lisenziya tələb olunan fəaliyyət növlərinin və icazələrin müəyyən edilməsinin meyarlarını, onların siyahısını, lisenziya və icazə sisteminin dövlət tənzimlənməsinin prinsiplərini, lisenziyanın (icazənin), onun dublikatının və əlavəsinin verilməsi, lisenziyanın (icazənin) yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpa edilməsi və ləğvi qaydalarını, lisenziya və icazə verən orqanların, onların vəzifəli şəxslərinin və lisenziya (icazə) sahiblərinin məsuliyyətini tənzimləyir. Bu Qanun (maliyyə bazarları sahəsində istisna olmaqla) ölkə ərazisində fəaliyyət göstərən, təşkilati-hüquqi formasından asılı olmayaraq bütün hüquqi şəxslərə, xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinə və fərdi sahibkarlara, habelə lisenziya və icazə verən orqanlara şamil olunur.

Lisenziya almaq üçün ərizəçi lisenziya verən dövlət orqanına - fiziki şəxs olduqda soyadı, adı, atasının adı, şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumatlar (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilməsi, ünvanı), ərizə hüquqi şəxsin (xarici hüquqi şəxsin filial və ya nümayəndəliyinin) adından verildikdə isə onun adı və hüquqi ünvanı qeyd edilmiş ərizə ilə müraciət edir. Ərizədə tələbin qısa məzmunu, ərizənin tərtib edildiyi tarix və ərizəçinin imzası, hüquqi şəxsin (xarici hüquqi şəxsin filial və ya nümayəndəliyinin) rəhbərinin və ya nümayəndəsinin imzası və hüquqi şəxsin (xarici hüquqi şəxsin filial və ya nümayəndəliyinin) möhürü, ərizəyə əlavə olunan sənədlərin siyahısı göstərilməlidir. Siyahıya hüquqi şəxsin, xarici hüquqi şəxsin filial və ya nümayəndəliyinin dövlət reyestrindən çıxarışının surəti, ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti, ərizədə qeyd olunan obyektlərdən hər biri üçün ərizəçinin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti (əgər lisenziya tələb olunan fəaliyyətin həyata keçirilməsi obyektlə bağlıdırsa), fəaliyyət növünün xüsusiyyətindən asılı olaraq, Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən şərtlərin və Nazirlər Kabinetinin müəyyən etdiyi əlavə şərtlərin yerinə yetirildiyini təsdiq edən sənədlər də daxildir.



> *İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, nazirlik tərəfindən «ASAN xidmət» mərkəzləri vasitəsilə lisenziyaların verilməsinə başlanıldığı 2015-ci il noyabrın 2-dən bu ilin 1 aprel tarixinə kimi sahibkarlara 3773 lisenziya (cari ilin 3 ayı ərzində 402 - bunun 262-si yeni, 140-ı isə müddətsiz lisenziya ilə əvəz edilmiş lisenziyalardır) verilmişdir ki, bunun da 2041-i yeni, 1732-si isə müddətsiz lisenziya ilə əvəz edilmiş lisenziyalardır.*

Lisenziya verən dövlət orqanı təqdim olunmuş ərizəyə və ona əlavə edilmiş sənədlərə baxılmanın nəticəsi əsasında ərizənin qeydiyyata alındığı tarixdən 10 iş günündən gec olmayaraq lisenziyanın verilməsi və ya verilməsindən imtina haqqında qərar qəbul edir və bu barədə ərizəçiyə məlumat verir. Lisenziyalar Bakı şəhəri üzrə 5 saylı Bakı «ASAN xidmət» mərkəzində, regionlar üzrə isə Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ və Masallı «ASAN xidmət» mərkəzlərində müddətsiz verilir. Sellülar (mobil) rabitə xidmətləri (texnoloji standartın adı göstərilməklə) üzrə lisenziyanın verilməsi üçün ərizəçi ilə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi arasında müvafiq müqavilə imzalanır.

**FƏXRİYYƏ**

# «Əmək pensiyaları haqqında» Qanuna dəyişikliklər təsdiq edilib

Prezident İlham Əliyev mayın 1-də «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli Qanununun tətbiqi və «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2006-cı il 6 mart tarixli fərmanda dəyişikliklər edilməsi haqqında fərman imzalayıb.

Dəyişikliklərə əsasən, 63 yaşına çatmış kişilərin və 60 yaşına çatmış qadınların fərdi hesabına sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığorta stajı olduqda (2017-ci il yanvarın 1-dək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) yaşa görə əmək pensiyası hüququ var. Fərmana əsasən, kişilər və qadınlar üçün pensiya yaşı 65-ə qaldırılır. Lakin bu müddət mərhələli şəkildə tətbiq olunacaq: kişilər üçün nəzərdə tutulan 63 yaş həddi 2017-ci il yanvarın 1-dən başlayaraq 2021-ci il yanvarın 1-dək, qadınların yaş həddi 2017-ci il yanvarın 1-dən başlayaraq 2027-ci il yanvarın 1-dək hər il 6 ay artırılacaq.

Əlilliyə görə əmək pensiyasının təyin edilməsi şərtlərində edilmiş dəyişikliyə əsasən, birinci qrup əlillərə ümumilikdə sığorta stajı 5 ildən az olmamaq şərti ilə, əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir. İkinci və üçüncü qrup əlillərə əlilliyə görə əmək pensiyası fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verməsi şərti ilə, bu maddədə göstərilən sığorta stajı olduqda təyin edilir. Bundan başqa, ailə başçısını itirməyə görə əmək pensiyasının sığorta hissəsinin əmək qabiliyyəti olmayan ailə üzvlərinin hər birinə düşən məbləği bu qanunun 13.3-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş əlilliyə görə əmək pensiyasının sığorta hissəsinin hesablanması mexanizminə uyğun olaraq hesablanmış məbləğin əmək qabiliyyəti olmayan ailə üzvlərinin sayına bölünməsi yolu ilə müəyyənləşdirilir. Əmək qabiliyyəti olmayan ailə üzvlərinin ailə başçısını itirməyə görə əmək pensiyalarının ailəyə düşən ümumi məbləği əmək pensiyasının minimum məbləğində aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir.

Əmək pensiyaçısı vəfat etdikdə, alınmamış əmək pensiyasının ödənilməsi və dəfn üçün müavinətin verilməsi maddəsində edilən dəyişikliyə əsasən, vəfat edən şəxsin ailəsinə pensiyaçının vəfatı tarixinə əmək pensiyasının minimum məbləğinin üç misli məbləğində dəfn üçün müavinət verilir. Daha bir dəyişikliyə əsasən, bu qanunun məqsədləri üçün əmək pensiyasının minimum məbləği 2017-ci il 1 yanvar tarixindən 110 manat məbləğində müəyyən edilir və sonradan həmin məbləğ bu qanunun 29.1-ci maddəsinə uyğun olaraq indeksləşdirilir.

Dəyişikliyə əsasən, əlilliyə görə əmək pensiyasının pensiya təyin olunan gündəlik qazanılmış məbləği tam ödənilir. Əlilliyə görə pensiya təyin edilmiş şəxs işləməkdə davam edərsə, onun pensiya təyin olunduqdan işləməyən əmək pensiyaçısı kateqoriyasına keçdiyi tarixədək olan dövr üzrə toplanan pensiya kapitalına və həmin kateqoriyaya keçdiyi tarixdəki yaşına müvafiq tələb olunan sığorta stajına əsasən bu qanunun 13-cü maddəsinə uyğun olaraq əmək pensiyasının sığorta hissəsi yenidən hesablanır. Qazanılmış əmək pensiyası hüquqlarının nəzərə alınması maddəsində edilmiş dəyişikliyə əsasən, sığortaolunanların, o cümlədən işləyən əmək pensiyaçılarının 2006-cı il 1 yanvar tarixindən 2017-ci il 1 yanvar tarixinədək olan dövr üzrə fərdi hesabın sığorta hissəsində toplanan və istifadə olunmamış (əmək pensiyasının sığorta hissəsinin hesablanmasında nəzərə alınmamış) pensiya kapitalı 70 faiz artırılmaqla, 2017-ci il 1 yanvar tarixinə fərdi hesabın sığorta hissəsində qeydə alınır.

İqtisadçı ekspert Pərviz Heydərovun fikrincə, DSMF-nin maliyyə dayanıqlılığının təmin olunması məcburi dövlət sosial sığorta ayırmaları üzrə və digər daxilolmalardan asılıdır ki, bunu bilavasitə vətəndaşların pensiyaya çıxmaq yaşının həddi ilə əlaqələndirmək düzgün deyil. Hazırda Fondun vəsaitləri həm hər ilin dövlət büdcəsindən transfert, həm də məcburi dövlət sosial sığorta ayırmalarından əldə olunan vəsait hesabına toplanır. Ölkədə həm məcburi dövlət sosial sığorta ayırmaları üzrə ödənişlərin həcmi durmadan artmalıdır, həm də vətəndaşların pensiya, ümumiyyətlə sosial müdafiəsi tədbirləri ilə özəl qurumlar da məşğul olmalıdırlar. Yəni pensiya məsələsinə kompleks yanaşmaq lazımdır: «Hər kəs işlədiyi müddətdə ödədiyi vergiyə əsasən pensiya almalıdır. Ancaq buna əksəriyyətin hazırkı əməkhaqqı səviyyəsi imkan yaradırmı?! Odur ki, DSMF-nin xərclərinin azaldılması və gəlirlərinin çoxaldılması məqsədi güdülürsə və buna nail olmaq istəyiriksə, təkcə pensiyaya çıxmaq yaşını uzatmalı deyil, qanunsuz yolla pensiyaya çıxma hallarını tamamilə aradan götürməli, sığorta ödənişlərinin həm şaquli, həm də üfiqi artırılmasını təmin etməliyik».

**F.İKRAMQIZI**

# Əmək müqaviləsi bildirişlərinin elektron qeydiyyatı

Əmək müqaviləsi bildirişi əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində elektron qaydada qeydiyyata alınması məqsədilə işəgötürən tərəfindən həmin elektron informasiya sisteminə daxil edilən elektron sənəddir.

Əmək Məcəlləsinin 3-cü maddəsinə əsasən, əmək müqaviləsinin bağlanılmasının, ona dəyişiklik edilməsinin və ya xitam verilməsinin müvafiq icra hakimiyyəti orqanının elektron informasiya sistemində elektron qaydada qeydiyyata alınması məqsədilə işəgötürən tərəfindən həmin elektron informasiya sisteminə elektron sənəd - əmək müqaviləsi bildirişi daxil edilməlidir. Bunun üçün isə işəgötürənlərin və ya onların səlahiyyət verdiyi şəxslərin gücləndirilmiş elektron imzası olmalıdır.

Elektron imza işəgötürənin işçi ilə imzaladığı və möhürlə təsdiq etdiyi əmək müqaviləsinin sistemə daxil edilərkən eyni hüquqi qüvvəni saxlamasını təmin edir. Sistemdə işəgötürən tərəfindən təsdiq edilmiş hüquqi qüvvəyə malik əmək müqaviləsi yerləşdirilir. E-imza vasitəsilə sistemə daxil edilən əmək müqaviləsi bildirişi eynilə kağız üzərində olduğu kimi, hər iki tərəfin hüquqlarını müdafiə edərək, məsuliyyətdən yayınmanın qarşısını alır. Bu sistem işçilərin əmək hüquqlarının pozulmamasına, habelə işəgötürən-işçi münasibətlərinə nəzarəti gücləndirməklə inkişaf edən və ya inkişafdan qalan fəaliyyət sahələrinin ayırd edilməsinin asanlaşmasına, iqtisadi inkişafın tənzimlənməsi üzərində işlərin keyfiyyətinin artmasına, dolayısı ilə sosial rifahın yüksəldilməsinə müsbət təsir göstərəcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayevin sözlərinə görə, istifadəyə verildiyi 2014-cü ilin iyulundan bu il mayın 1-dək əmək müqaviləsi bildirişləri üzrə elektron informasiya sisteminə 7 milyon 606 min 800 dəfə müraciət olunub: «Ölkəmizin sosial-iqtisadi münasibətlər sisteminin mühüm elementi olan bu sistem ilk növbədə əmək münasibətlərinin və bu münasibətlərdə baş verən dəyişikliklərin elektron müstəvidə rəsmiləşdirilərək şəffaflaşdırılmasına xidmət edir». Onun sözlərinə görə, əmək müqaviləsi bildirişləri üzrə elektron informasiya sistemi işçi və işəgötürənlərin hüquqlarının əsaslı təminat vasitəsi olmaqla yanaşı, əmək münasibətlərinin dolğun və obyektiv uçotunun aparılmasına imkan verib, əmək bazarında baş verən proseslərlə bağlı zəngin və real vəziyyətə əsaslanan informasiya bazası formalaşdırıb.

**FƏXRİYYƏ**

## 2017-ci ilin may ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli vergilər barədə

### YADDAŞ

**2017-ci ilin aprel ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **may ayının 22-dən** gec olmayaraq vergi orqanına **təqdim etməli** və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi** cari ilin **may ayının 22-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr**

• **2017-ci il üzrə torpaq vergisinin bəyannaməsini** cari ilin **may ayının 15-dən** gec olmayaraq vergi orqanına **təqdim etməlidirlər**.

• **2017-ci ilin 2-ci rübü üzrə əmlak vergisinin** cari ödəmələrini bu ilin **may ayının 15-dən gec** olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**Vergilər may ayında ödənilir, bəyannamə rüblük olaraq iyulun 20-dən gec olmayaraq təqdim edilir**

• **Muzdlu işlə əlaqədar 2017-ci ilin aprel ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi** cari ilin **may ayının 22-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə yanvarın 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri isə 2-ci rüb üzrə bəyannaməni iyulun 20-dən gec olmayaraq təqdim edirlər).

• **Xüsusi notariusların 2017-ci ilin aprel ayı üzrə hesabladıqları gəlir vergisi** cari ilin **may ayının 22-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2-ci rüb üzrə bəyannamə iyulun 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyinizi tövsiyə edirik.**

## «Vergilər uşaqların gözü ilə»

### RƏSM və İNŞA MÜSABİQƏSİ

***Vergilər Nazirliyi 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş «Vergilər uşaqların gözü ilə» rəsm və inşa müsabiqəsini elan edir. Müsabiqə seçmə və yekun mərhələdən ibarət olmaqla iki mərhələdə keçiriləcəkdir. Müsabiqənin qaliblərinə (1-ci, 2-ci və 3-cü yerləri tutanlara) diplom və hədiyyələr təqdim ediləcəkdir.***

Rəsm müsabiqəsində 5-16 yaş, inşa müsabiqəsində isə 9-16 yaş qrupuna aid uşaqlar iştirak edə bilərlər. Müsabiqəyə qoşulmaq üçün rəsmlər və inşalar 2017-ci ilin may ayının 12-dək Vergilər Nazirliyinin rəsmi internet saytında yerləşdirilmiş aşağıdakı ünvana təqdim edilməlidir:
www.taxes.gov.az/modul.php?name=terminal&cat=3
Hər iştirakçı yalnız 1 rəsm və ya 1 inşa təqdim edə bilər. Rəsm və ya inşa təqdim edilərkən müsabiqə iştirakçısının adı, soyadı və atasının adı, yaşı, təmsil olunduğu şəhər (rayon), oxuduğu məktəb və sinif ayrıca qeyd olunmalıdır.

Müsabiqədə fəal iştirak etməyinizi və müvəffəqiyyət qazanmağınızı arzu edirik!

Azərbaycan Respublikası Vergilər Nazirliyi

# Əmək müqavilələrinin bağlanmamasına qarşı mübarizə tədbirləri gücləndirilir

Tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması ilə bağlı nəzarətin gücləndirilməsinə dair tədbirlər haqqında dövlət başçısının imzaladığı fərman vətəndaşların əmək hüquqlarının qorunması, sosial təminatlardan yararlanmasının təmin edilməsi, bu sahəyə nəzarətin gücləndirilməsi və monitorinqin müasir innovasiyalardan istifadə etməklə təşkili məqsədini daşıyır. Sənədə əsasən, ilkin mərhələdə pilot layihə olaraq Bakı şəhərində tikilməkdə olan çoxmənzilli yaşayış binalarının və həmin tikinti obyektlərinin inşası ilə məşğul olan fiziki və hüquqi şəxslərin elektron reyestri yaradılacaq və əmək müqaviləsi hüquqi qüvvəyə minmiş işçilərlə bağlı məlumatların əldə edilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi bu reyestrə inteqrasiya ediləcək. Bununla yanaşı, əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işlərin yerinə yetirilməsinə cəlb olunan şəxslərin müəyyən edilməsi məqsədilə tikintini həyata keçirən fiziki və ya hüquqi şəxslərin vəsaiti hesabına tikinti obyektlərində real vaxt rejimində işləyən müşahidə kameraları quraşdırılacaq.

Sənəndə əsasən, qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması sahəsində monitorinqin həyata keçirilməsi və nəzarət fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi yaradılacaq. Mərkəz tikinti obyektlərində quraşdırılan kameralar vasitəsilə müşahidələr aparacaq, işçilərin eyniləşdirilməsini həyata keçirən analitik tanıma sistemi yaradacaq və idarə edəcək, aşkar edilmiş faktların sənədləşdirilməsi, inzibati məsuliyyət tədbirlərinin tətbiq olunması və ya təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi məsələsinə baxılması üçün sənədlərin aidiyyəti dövlət orqanına göndərilməsini və s. həyata keçirəcək.



> Qeyri-rəsmi əmək münasibətlərinin qarşısının alınması sahəsində monitorinqin həyata keçirilməsi və nəzarət fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi yaradılacaq

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ülvi Mehdiyevin sözlərinə görə, burada əsas məqsəd tikintidə çalışan vətəndaşlarla əmək müqaviləsinin imzalanmasına nail olmaqdır: «Bu, vətəndaşların hüquqlarının təmin olunmasına, sosial təminat hüquqlarından faydalanmasına xidmət etməklə yanaşı, həm tikintini aparan sahibkarların xeyrinədir, həm də dövlət üçün əhəmiyyətlidir. Bununla da faktiki iş yeri olan vətəndaşların dəqiq uçotu aparılacaq».

Ü.Mehdiyev əlavə edib ki, yeni yaradılacaq monitorinq mərkəzi aidiyyəti qurumlarla birgə tikinti obyektlərindəki insan resursları ilə bağlı müqayisəli təhlillər aparacaq və qeyri-rəsmi əmək münasibətlərinin olmasına dair şübhə yarandıqda səyyar monitorinq qrupları yerində araşdırma aparmaq üçün obyektə göndəriləcək: «Əmək müqaviləsinin olmaması müəyyənləşdikdə inzibati tənbeh tədbirləri görüləcək, tərkibində cinayət məsuliyyəti olan işlərdə isə «ASAN xidmət» topladığı faktları sənədləşdirərək aidiyyəti dövlət orqanlarına təqdim edəcək. Bu məqsədlə artıq aidiyyəti qurumlarla görüşlər keçirilib və tədbirlər planı hazırlanıb».

**AYTƏN**

beynəlxalq panoram

# Avropa İttifaqının maliyyə maraqları qorunur

Avropa Şurası Avropa İttifaqının (Aİ) maliyyə maraqlarını qorumaq haqqında direktiv (RİF Direktivi) qəbul etmişdir. Sənəd əlavə dəyər vergisi ilə bağlı «ciddi» maliyyə fırıldaqlarına qarşı tətbiq olunacaq. Aİ-nin maliyyə maraqlarına qarşı cinayətlərin araşdırılmasını və cinayətkarların cəzalandırılmasını nəzərdə tutan RİF Direktivi qanunsuz şəkildə istifadə edilmiş Aİ fondlarının geri qaytarılmasına şərait yaradacaq. Sənəddə Aİ büdcəsinə qarşı bir sıra cinayətlərin, eləcə də fırıldaqçılıq hallarının, aktiv və passiv korrupsiyanın, vəsaitlərin qanunsuz mənimsənilməsinin və çirkli pulların yuyulmasının ümumi şəkildə müəyyənləşdirilməsi öz əksini tapmışdır. Direktivə, həmçinin, işlərin qanun üzrə araşdırılması və izlənilməsi üçün çərçivə təşkil edən minimal vaxt müddətləri, eləcə də sanksiyalarla bağlı minimal hüquqlar da daxildir.

Direktiv ƏDV ilə bağlı «ciddi» fırıldaq hallarına qarşı, başqa sözlə, bu hallar Avropa İttifaqına üzv iki və ya daha artıq ölkənin ərazisi ilə bağlı olarsa və ümumi ziyan ən azı 10 milyon avro təşkil edərsə, tətbiq oluncaq. Tətbiqi mümkün olan hallarda sənəd ƏDV ilə bağlı yalan, səhv və ya yarımçıq ərizə və sənədlərdən istifadə edilməsini, yaxud onların təqdim olunmasını da əhatə edəcək. Bildirilmişdir ki, bu addımın atılması Aİ-nin büdcə ehtiyatlarının azalmasına, eləcə də ƏDV ilə bağlı informasiyanın gizlədilməsinə qarşı yönəldilib.

# İki futbol klubuna qarşı istintaq başlayıb

Böyük Britaniyanın vergi administrasiyası - HM Revenue and Customs (HMRC) vergi fırıldağı ittihamı ilə iki futbol klubuna qarşı təhqiqata başlamışdır. Vergi administrasiyasından bildirilmişdir ki, gəlir vergisinin və milli sığorta haqlarının gizlədilməsi şübhəsi ilə peşəkar futbol sənayesində fəaliyyət göstərən bir neçə nəfər həbs edilmişdir.

Vergi idarəsinin bəyanatında bildirilir: «HMRC-nin 180 əməkdaşı bütün Britaniya və Fransa ərazisində fəaliyyətə keçmişdir. Müstəntiqlər İngiltərənin şimal-şərq və cənub-şərqində bir sıra binalarda axtarış aparmış və şübhəli şəxsləri həbs etmişlər, bundan əlavə, işgüzar sənədləri, maliyyə yazışmalarını, kompüterləri və mobil telefonları götürmüşlər. Fransa hökuməti də Britaniya istintaqçılarına yardım edir, şübhəlilər həbs olunur, ölkə ərazisində axtarışlar aparılır. Bu cinayət axtarışı aydın göstərir ki, kim olursan-ol, əgər vergi fırıldağına əl atmısansa, bunun cəzası ilə də üz-üzə gələcəyin günü gözləməlisən».

# Rusiya otelləri «Google vergisi» ödəyəcəklər



Mehmanxanaların əvvəlcədən sifariş verilməsi xidməti göstərən «booking.com» artıq Rusiyanın vergi xidmətində əlavə dəyər vergisi (ƏDV) ödəyicisi kimi qeydiyyata alınmışdır. Xatırladaq ki, indiyədək göstərdikləri xidmətlərin qarşılığı olaraq müəyyən faiz alan elektron xidmətlər Rusiyada ƏDV ödəmirdilər. Onların əvəzinə bu işi elektron xidmətlərlə əməkdaşlıq edən Rusiya şirkətləri edirdilər.

2017-ci ilin əvvəlindən Rusiyanın Vergi Məcəlləsində bu sahədə edilmiş dəyişikliklər işgüzar dairələr arasında qeyri-rəsmi adla «Google vergisi» kimi tanınıb. İndi Rusiya ərazisində fəaliyyət göstərən xarici xidmət şirkətləri rəsmi şəkildə qeydiyyata alınmalı və dövlət büdcəsinə 15,25% dərəcə ilə vergi ödəməlidirlər.

Statistikaya əsasən, Rusiyada əvvəlcədən mehmanxana sifariş verilməsinin təxminən yarısı «booking.com» vasitəsilə həyata keçirilir. Gözlənilir ki, «Google vergisi»nin tətbiqi sayəsində yaxın vaxtlarda mehmanxanada qalmaq üçün qiymətlər ən azı 4% artacaq.

# Vergi limanları ABŞ vergi sisteminə başağrısı verir

Amerika Birləşmiş Ştatlarında hazırda qüvvədə olan vergi qanunvericiliyinə əsasən, hər hansı xarici dövlətdə əldə edilmiş gəlir ölkəyə gətirilənə qədər vergiyə cəlb olunmur. Bu isə bəzi şirkətləri öz gəlirlərini ABŞ sərhədlərindən kənarda fəaliyyət göstərən vergi limanlarında yerləşdirməyə təhrik edir. Ekspertlərin hesablamalarına görə, offşorlarda saxlanılan və vergidən yayındırılan pulların məbləği milyardlarla dollar təşkil edir. Buna görə də ABŞ şirkətlərinin pullarının ölkəyə gətirilməsi üçün siyasətçilər mövcud vergi sistemini başdan-ayağa nəzərdən keçirərək elə bir qanunçuluq bazası yaratmalıdırlar ki, həmin sistem şirkətləri gizlətdikləri vergini dövlət büdcəsinə ödəməyə vadar etsin.

Hökumət dairələri ABŞ-ın transmilli şirkətlərinin vergi ödəməkdən yayınmaq üçün istifadə etdikləri vergi sahəsindəki zəifliyi tənqid edir. Bu zəiflikdən sui-istifadə edən şirkətlər ABŞ-dan kənarda mənzil qərargahlarını yaradır və ya öz patentlərini, yaxud müəlliflik hüquqlarını vergi dərəcələrinin aşağı olduğu ölkələrə köçürürlər. Bu isə dövləti yalnız gəlirlərdən məhrum etmir, həm də öz gəirlərini vergi limanlarına keçirməyən vicdanlı ABŞ şirkətlərinin vergi yükünün artmasına səbəb olur.

# Cıdır mərclərindən 10%-lik vergi tutulur

Avropa Komissiyası Britaniya hökumətinin ölkədə bukmeykerlərin cıdır yarışlarına qoyduqları vəsaitin 10%-lik dərəcə üzrə vergiyə cəlb etməsini bəyəndiyini bildirmişdir. Yığım pul mükafatları, atların vəziyyəti, baytarlıq, eləcə də iştirakçıların zehni və fiziki durumu da daxil olmaqla bir sıra sahələrə yönəldiləcək. Cıdır üçün dəyişdirilmiş yığım dərəcəsi bu il aprelin 1-də elan olunmuşdur. Bukmeykerlərə bu, 500 min funt sterlinqdən artıq gəlir əldə etmək üçün fürsət yaradır. Bundan əvvəlki sistem çərçivəsində Britaniya cıdırlarında iştirak edən offşor onlayn xidmətlər atçılıq idmanına haqq ödəmək üçün heç bir öhdəlik daşımırdılar.

Komissiyanın rəyində bildirilmişdir ki, bu addımın atılması mərc məbləğləri qoyan operatorlar üçün bərabər imkanlar yaratmaqla yanaşı, yeni operatorları dəstəkləməklə rəqabətin inkişafına müsbət təsir göstərir.

Komissiyanın qərarı Böyük Britaniya Avropa İttifaqı üzvlüyündə qaldığı müddət boyunca davam edəcək.

# Beynəlxalq vergi qanunvericiliyi müzakirə ediləcək

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) növbəti konfransına iştirakçıların qeydiyyatı başlanmışdır. 2017-ci ilin 5-6 iyununda Vaşinqtonda keçiriləcək konfransda OECD-nin beynəlxalq vergi qanunvericiliyi ilə bağlı hazırda irəli sürdüyü və gələcək təşəbbüsləri müzakirə ediləcək.

Tədbir ABŞ-ın Beynəlxalq Biznes Şurası, OECD, eləcə də Biznes üzrə Məşvərət Şurası və OECD yanında Ticarət-Sənaye Məşvərət Komitəsi ilə birlikdə təşkil ediləcək.

Konfrans ABŞ-ın biznes ictimaiyyətinin təmsilçiləri ilə OECD administrasiyasının vergi siyasəti mərkəzi üzvlərinin, eləcə də ABŞ-ın və beynəlxalq vergi standartları çərçivəsində fəaliyyət göstərən digər ölkələrin vergi xidmətlərinin yüksək vəzifəli şəxslərinin görüşünə imkan yaradacaq.

Vergi konfransının gündəliyinə çıxarılacaq mövzulara bunlar daxildir: transfer qiymətqoyma, vergi mübahisələrinin həlli, BEPS standartlarının tətbiqi, eləcə də verginin müəyyənləşdirilməsinin təkmilləşdirilməsi yolları.

## Xəbər lenti

**Yunanıstan**ın Baş naziri Aleksis Tsiprasın bildirdiyinə görə, hökumət borcların bir hissəsinin kreditorlar tərəfindən silinəcəyi halda vergi islahatlarının həyata keçirilməsinə hazırdır.

**Avstriya** hökuməti Amerikanın «Facebook» və»Google» şirkətlərinin ölkə ərazisindəki fəaliyyətinə vergi qoymağı planlaşdırır. Rəhbərliyin planı ilk növbədə həmin korporsiyaların biznes-modelinə aid ediləcək.

**Avstraliya** hökumətinə «Ebay» tərəfindən ünvanlanmış müraciətdə xarici onlayn platformalar vasitəsilə satın alınan ucuz mal və xidmətlərə vergi qoyulmasından narahatlıq ifadə edilmişdir. Belə bir vergi qoyulsa, «Ebay» avstraliyalıları xarici satıcılardan mal və xidmətləri almamağa çağıracaq və bununla da vergi ödəməyəcək.

**Hindistan** hökuməti fermerlərdən yeni vergi tutulacağı barədə yayılan xəbərləri təkzib etmişdir. Hökumət vergi ödəyicilərinin diqqətinə ümumiyyətlə kənd təsərrüfatı sektoru üçün hər hansı əlavə vergi qoyulmasının planda olmağını çatdırmışdır.

**Rusiya** parlamentinin bir qrup deputatı Krımı offşor zonaya çevirmək barədə təklif irəli sürmüşdür.

**ABŞ** Prezidenti Donald Tramp bildirmişdir ki, hələlik azad ticarətlə bağlı Şimali Amerika sazişinə (NAFTA) toxunmaq niyyətində deyil.

**Malta** ailə biznesinin hədiyyə müqaviləsi vasitəsilə ötürülməsinə tətbiq olunan rüsumun dərəcəsinin aşağı salındığını elan etmişdir. Bu ilin aprelindən gələn ilin aprelinədək rüsum əvvəlki kimi 5% deyil, 1,5% təşkil edəcək.

**İtaliya** bu il Avropa İttifaqının ortamüddətli büdcə tapşırıqlarına uyğun «tələb olunan dəqiqləşdirməni» pozacaq, - bu sahədə proqnoz müəyyənləşdirən Avropa Komissiyasının hesabatında bildirilmişdir.

**«Google» şirkəti**nin əsas strukturu «Alphabet Inc.» İtaliyanın vergi orqanları ilə iddiaların yoluna qoyulması barədə razılıq əldə etmişdir. İtaliyanın vergi xidmətinin gəldiyi qənaətə əsasən, «Alphabet»in bu ölkədə vergiləri tam həcmdə ödəmədiyi gəlirlərinin ümumi məbləği 1 milyard avrodan artıq təşkil edir ki, bunun qarşılığı olaraq şirkət 306 milyon avro cərimə ödəməli olacaq.

**Rusiya**da elektron xidmət göstərən xarici şirkətlərdən vergi orqanlarına ilin birinci rübü üzrə cəmi 92 ƏDV bəyannaməsi təqdim edilmişdir. Həmin bəyannamələrə əsasən, ödənilmiş verginin ümumi məbləği 2 milyard rubla (56 milyon manat) yaxındır.

**ABŞ**-ın ticarət naziri Uilbur Ross «Routers» agentliyinə müsahibəsində qeyd etmişdir ki, Prezident Donald Trampın bu il üçün vəd etdiyi ümumi daxili məhsulun 3 faizlik artımına vergi dərəcələrini aşağı salmadan nail olmaq mümkün deyildir.

## krossvord




**Yuxarıdan aşağı:** 1.Təcrübədə istifadə olunmaq üçün heyvanların laboratoriya şəraitində saxlandığı bina; 2.Şərur rayonunda kənd; 3.Meşə; 4.Kamera-instrumental musiqinin əsas janrlarından biri. İtalyan dilindən tərcümədə «səslənmək» mənasını verir; 5.Belarusun paytaxtı; 6.Yarış; 9.Mövsümi meyvə; 13.Lev Tolstoyun «Hərb və Sülh» romanında personajın adı; 15.Bərabərlik; 16.Türk, yakut və altay mifologiyasında su tanrısı; 17.Yeni Zelandiyada şəhər; 18.Ət və balıq yeməklərinin yanında verilən bişmiş xəmir, tərəvəz məmulatları (makaron, kartof, göy noxud və s.); 20.Neyronun iki çıxıntısından biri; 21. Gəmilərə yol göstərən qurğu. Beyləqan rayonunda qəsəbə. **Soldan sağa:** 1.BŞ-da ştat; 5.Şahmatda vəziyyət; 7.ABŞ-da ştat; 8.Fransız rəssamı, XIX əsrin Avropa akademizminin hamı tərəfindən qəbul olunan lideri; 10.Rumıniyada şəhər; 11.E.ə. XX-XIX əsrlərdə Cənubi Azərbaycanda və Xəzərin cənub hissəsində yaşamış qədim türk tayfalarından biri; 12.İdmançı; 14.Zürafələr fəsiləsinə aid heyvan növü; 19.Türkiyədə oriyental tipli xalq musiqisi janrı; 21.Poçt ödəniş nişanı; 22.Şəriətdə xüsusi qayda ilə yerinə yetirilən vacib əməl; 23.Qəzet-jurnal səfihələrində çap olunan əsərlərin, əsasən, satirik şeirin xüsusi növü; 24.Almaniyada çay; 25.Fond birjasında hər hansı prosesin müəyyən dövr ərzində gedişatını xarakterizə edən mütləq və ya nisbi göstərici.



*Gəmilərə yol göstərən qurğu*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Voyniç; 2.Nereida; 3.Arısu; 4.İrland *(dəniz)*; 5.Asuan *(bəndi)*; 6.Əminli; 9.Amin; 13.Sədi; 15.Beysbol; 16.Smirna; 17.İndira *(Qandi)*; 18.Moreyn; 20.Qarış; 21.Nabat. **Soldan sağa:** 1.Vandalizm; 5.Ayə; 7.Yardımlı; 8.Suri; 10.İlisu; 11.Nominal; 12.Karst; 14.Knubr; 19.Maqadan; 21.Neyro; 22.Rara; 23.Zimbabve; 24.ABŞ; 25.Plastilin.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 15000

idman

TOUR d'AZERBAIDJAN 03.05 - 07.05 /2017

# Beynəlxalq velosiped turuna yekun vuruldu

## Azərbaycanın Elit yığma komandasının üzvü Kiril Pozdnyakov yarışın ən yaxşı velosipedçisi adına layiq görüldü

**Beynəlxalq Velosipedçilər İttifaqının 2.1 kateqoriyalı, ümummilli lider Heydər Əliyevin 94-cü ildönümünə həsr olunmuş «Tour d'Azerbaidjan-2017» başa çatdı. Mayın 3-də Bakıda Dövlət Bayrağı Meydanından start götürən velotura mayın 7-də paytaxtın Azadlıq meydanında yekun vuruldu. 18 ölkədən 123 komandanın qatıldığı bu mötəbər turnirdə Azərbaycanı «Synergy Baku» kontinental klubunun üzvləri Elçin Əsədov, Elgün Əlizadə, Samir Cəbrayılov, Yosip Rumaç, Kiril Pozdnyakov və Ənvər Asanovla təmsil edirdi.**

İlk yarış günündə iştirakçılar Sumqayıt Şəhər İcra Hakimiyyətinin qarşısında finiş xəttini keçiblər. 150 kilometr məsafəni hamıdan tez İsrailin Pro-kontinental «İsrael Cycling Academy» komandasının üzvü Mikel Raim keçib - 3 saat 4 dəqiqə 11 saniyə. Latviyanın kontinental «Rietumu Banka-Riga» komandasının təmsilçisi Emils Liepins və İtaliyanın Pro-Kontinental «Nippo Vini-Fantini» klubunun velosipedçisi Pyer Paolo de Neqri mərhələ qalibi ilə eyni vaxt göstəricisinə imza atsalar da, fotofinişə əsasən 2-3-cü yerləri tutublar. Azərbaycanın kontinental «Synergy Baku» komandasının üzvlərinin hamısı marşrutu ümumi pelotonda başa vurublar. Mərhələnin ən yaxşı dağ velosipedçisi Ukraynanın kontinental «Kolss» komandasının üzvü Vitaliy Buts olub. ABŞ-ın Pro-kontinental «Novo Nordisk» klubunun təmsilçisi Mehdi Benhamuda isə ən yaxşı gənc velosipedçi kimi mükafatlandırılıb.

Veloturun ikinci günü Azərbaycanın «Synergy Baku» kontinental komandası üçün uğurlu nəticə ilə yadda qalıb. Yarışın 186,5 kilometrlik Bakı-İsmayıllı mərhələsində Azərbaycanın elit yığması və «Synergy Baku» kontinental klubunun üzvü Kiril Pozdnyakov hamını qabaqlamaqla qalibiyyət sevinci yaşayıb. Məsafəni 4 saat 47 dəqiqə 49 saniyəyə başa vuran velosipedçimiz ən yaxın izləyicisi Ukraynanın «Kolss» komandasının üzvü Oleksandr Polivodanı 38 saniyə qabaqlamaqla solo-finiş edib. İsrailin «Israel Cycling Academy» komandasının üzvü Dennis van Vinden isə liderdən 42 saniyə geri qalmaqla üçüncü yeri tutub. Mərhələ qalibiyyəti Kiril Pozdnyakovu, həmçinin, ümumi təsnifatın liderliyinə də yüksəldib və o, mavi rəngli «Synergy» köynəyinə yiyələnib. Bundan başqa, velosipedçimiz aralıq sprintlərində hamıdan çox xal toplamaqla ən yaxşı sprinter üçün nəzərdə tutulan yaşıl rəngli «SOCAR» köynəyinə də sahib çıxıb. Mərhələnin ən yaxşı dağ velosipedçisi adına yenə də ukraynalı Vitali Buts layiq görülüb. Almaniyanın «Team Sauerland NRW p/b Henley & Partners» klubunun üzvü Feliks İntra isə ən yaxşı gənc velosipedçi kimi mükafatlandırılıb.

Mayın 5-də veloturun üçüncü mərhələsinə yekun vurulub. Yarışın 177 kilometrlik Qəbələ-Oğuz-Şəki-Oğuz-Qəbələ marşrutundan sonra Azərbaycanın elit yığması və «Synergy Baku» kontinental klubunun üzvü Kiril Pozdnyakov ümumi təsnifatda liderliyini qoruyub. Mərhələ qalibi isə «Synergy Baku»nun keçmiş üzvü, hazırda Avstriyanın «Amplatz BMC» komandasının şərəfini qoruyan sloveniyalı Matey Müqerli olub. O, məsafəni 4 saat 20 dəqiqə 32 saniyəyə başa vurub. İsrailin «İsrael Cycling Academy» komandasının üzvü Mikel Raim və Ukraynanın «Kolss» komandasının təmsilçisi Vitali Buts qaliblə eyni vaxt göstəricinə imza atmaqla finiş xəttini müvafiq olaraq 2-3-cü keçiblər. Aralıq sprintlərində hamıdan çox xal toplayan «İsrael Cycling Academy» komandasının üzvü Mikel Raim ən yaxşı sprinter üçün nəzərdə tutulan yaşıl rəngli köynəyi özünə qaytarıb. Vitaliy Buts isə ən yaxşı dağ velosipedçisi adını özündə saxlayıb. Almaniyanın «Team Sauerland NRW p/b Henley & Partners» klubunun üzvü Feliks İntra isə yenidən ən yaxşı gənc velosipedçi kimi mükafatlandırılıb.



Beynəlxalq velosiped turunun dördüncü mərhələsinə mayın 6-da yekun vurulub. Yarışın 164 kilometrlik bu mərhələsində iştirakçılar Qəbələ Rayon İcra Hakimiyyətinin qarşısından start götürərək İsmayıllı-Ağsu-Şamaxı marşrutu üzrə hərəkət ediblər. Yürüş iştirakçıları Vergilər Nazirliyinin Pirquludakı Tədris Mərkəzinin qarşısında finiş xəttini keçiblər. Əvvəlki illərdən fərqli olaraq, marşruta Ağsu dolaylarının da əlavə edilməsi mübarizəyə əlavə rəng qatıb. Veloturun ən çətin dağ mərhələsinin qalibi isə ABŞ-ın «İllu-minate» komandasının təmsilçisi Edvin Avila olub: 4 saat 2 dəqiqə 1 saniyə. Rusiyanın «Gazprom-Rusvelo» və İtaliyanın «Wilier Triestina» klublarının nümayəndələri İldar Arslanov və Aleks Turrin finişi qalibdən, müvafiq olaraq, 2 və 5 saniyə sonra keçərək ikinci, üçüncü yerləri tutublar.



Üç mərhələdən sonra ümumi təsnifat cədvəlinə başçılıq edən Elit yığmamızın üzvü Kiril Pozdnyakov bu dəfə yeddinci olmaqla liderliyi qoruyub və mavi rəngli «Synergy» köynəyini özündə saxlayıb. Aralıq sprintlərində hamıdan çox xal toplayan mərhələ qalibi Edvin Avila ən yaxşı sprinter adına layiq görülüb. Fransanın «Delko Marseille Provance KTM» klubunun üzvü Con Anderson Rodriqes isə ən yaxşı gənc velosipedçi kimi mükafatlandırılıb.

Mayın 7-də ümummilli lider Heydər Əliyevin 94-cü ildönümünə həsr olunmuş «Tour d'Azerbaidjan-2017» beynəlxalq velosiped turuna yekun vurulub. 2.1 kateqoriyalı yarışın sonuncu mərhələsinin start və finiş nöqtəsi Azadlıq meydanında olub. Bu dəfə iştirakçılar Bakı-Abşeron-Bakı marşrutu üzrə 158 kilometr məsafə qət ediblər. Son mərhələnin qalibi «İsrael Cycling Academy» komandasının üzvü Krist Neylands olub. O, məsafəni 3 saat 53 dəqiqə 56 saniyəyə başa vurmaqla solo-finiş edib. Türkiyənin «Torku Şekerspor» və ABŞ-ın «İlluminate» klublarının velosipedçiləri Ahmet Örken və Edvin Avila qalibdən 21 saniyə geri qalmaqla 2-3-cü yeri tutublar.

Yarışın lider köynəklərinin sahibləri isə dəyişilməz qalıb - Azərbaycanın Elit yığma komandasının üzvü Kiril Pozdnyakov ümumi təsnifatın qalibi üçün nəzərdə tutulan «Synergy» köynəyini özündə saxlamaqla, «Tour d'Azerbaidjan-2017»nin qalibi olub. Bundan başqa, təmsilçimiz dağ yollarındakı uğurlu çıxışı ilə ən yaxşı dağ velosipedçisi adına layiq görülüb. K.Pozdnyakov, həmçinin, ən yaxşı azərbaycanlı velosipedçi üçün nəzərdə tutlan xüsusi köynəklə də təltif edilib. Aralıq sprintlərində hamıdan çox xal toplayan «İlluminate» komandasının nümayəndəsi Edvin Avila ən yaxşı sprinter, Fransanın «Delko Marseille Provance KTM» klubunun üzvü Con Anderson Rodriqes ən yaxşı gənc velosipedçi adına layiq görülüblər. Komanda hesabında isə Ukraynanın «Kolss» komandası 1-ci yeri tutub.

Velosipedçiləri Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov və Avropa Velosipedçilər Birliyinin vitse-prezidenti Aleksandr Qusyatnikov təltif ediblər.

## Sahib Ələkbərov: «Qarşıya qoyulan vəzifələrin öhdəsindən gələ bildik»

«Tour d'Azerbaidjan-2017» beynəlxalq velosiped turu başa çatdıqdan sonra Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov jurnalistlərin suallarını cavablandırıb.

S.Ələkbərov turun nəticələrindən danışaraq deyib: «Çox yaxşı yarış oldu. İlk dəfə «Azərbaycan turu»nda bu qədər dəyişkən hava ilə üzləşdik. Yağış da yağdı, dolu da. Amma təbiət hadisəsi tura rəng qatdı. Əsas odur ki, komandalar bu yarışda həvəslə çıxış etdi. Gördüyünüz kimi, mərhələlər üzrə fərqli qaliblərimiz oldu».

Federasiyanın vitse-prezidenti Azərbaycanın «Synergy Baku» kontinental komandasının perspektivləri barədə də məlumat verib: «Bu nəticəni gözləyirdim. Komandamız gəncləşib və bu üzdən müəyyən çətinliklərlə üzləşmişik. Ancaq şadam ki, Kiril Pozdnyakov ümidlərimizi doğrultdu. Bu, hələ başlanğıcdır. Bu heyətlə daha böyük uğurlara imza atacağıq. Buna qədər iki dəfə komanda şəklində qalib gəlmişdik. Mənim üçün hər bir uğur şirindir. 6 pro-kontinental komandanın iştirak etdiyi yarışda, təcrübəli rəqiblərlə mübarizədə Kirilin 1-ci yeri tutması böyük uğurdur. Kiril məsuliyyətini hiss edən idmançıdır. Ona böyük ümidlərim var. Ancaq velosiped idmanı yalnız fərdi mübarizədən ibarət deyil. O, bu uğura təkcə özü yox, komanda üzvlərinin yardımı nəticəsində nail olub».

Sahib Ələkbərov bildirib ki, ilk növbədə, yeni idmançılar yetişdirməli və bazanı inkişaf etdirməliyik. Bunun üçün müəyyən maliyyə vəsaiti tələb olunur. Bu baxımdan, dövlətin çox böyük dəstəyi var: «İrəliyə doğru addım-addım gedirik. «Synergy Baku»nun heyətinə güclü legionerlər cəlb oluna bilər. Biz bütün variantlara baxırıq. Amma, ilk növbədə, yerli idmançıları yetişdirməliyik. 2015-ci ilin mayında Prezident İlham Əliyev Veloparka gələndə heyətdə azərbaycanlı idmançı olub-olmadığını soruşdu. Mən də 16 idmançıdan 12-nin yerli velosipedçi olduğunu dedim. Dövlətimizin başçısı buna çox sevindi. Gənc velosipedçilərimiz yetişməkdədir. Bu yaxınlarda yeniyetmələr Polşadan yarışdan qayıdıblar. İlk dəfə bu turnirdə iştirak etmələrinə baxmayaraq çox yaxşı çıxış ediblər».

# Mariya Stadnik yeddiqat Avropa çempionudur

Serbiyanın Novı Sad şəhərində keçirilən sərbəst, yunan-Roma və qadın güləşi üzrə Avropa çempionatı başa çatıb. Yarışlarda sərbəst və qadın güləşçilərimiz ümumi komanda hesabında ikinci olublar. Azərbaycanın dünya səviyyəli güləşçisi Mariya Stadnik bu çempionatda da rəqiblərinin heç birinə şans verməyərək, karyerasında yeddinci dəfə qitə çempionu adına layiq görülüb.



Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, qadın güləşçilərimiz çempionatı 1 qızıl və 2 bürünc medalla tamamlayıblar. Qeyd etdiyimiz kimi, qızıl medalı komandamıza Mariya Stadnik (48 kq), bürünc medalları isə Alyona Kolesnik (55 kq) və Tatyana Omelçenko (60 kq) qazandırıblar. Bu nəticə ilə qadın güləşçilərimiz komanda hesabında 45 xalla Avropa ikincisi olublar. Rusiya 55 xalla birinci, Belarus isə 43 xalla üçüncü yeri tutub.

Sərbəst güləşçilərimiz çempionatı 1 qızıl, 3 gümüş və 1 bürünc medalla yekunlaşdırıblar. Qızıl medalı yığmamıza Giorgi Edişeraşvili (57 kq) qazandırıb. Murad Süleymanov (74 kq), Aleksandr Qostiyev (86 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) gümüş, Ruslan Dibirhacıyev (70 kq) isə bürünc medala sahib olublar.

Bu nəticə ilə sərbəst güləşçilərimiz də komanda hesabında 57 xalla Avropa ikincisi olublar. Rusiya 62 xalla birinci, Türkiyə isə 53 xalla üçüncü yeri tutub.

Çempionatın son iki günündə yunan-Roma güləşçiləri mübarizəyə qoşulublar. 75 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız Ruhin Mikayılov ardıcıl olaraq Danimarka və Ukrayna güləşçilərini məğlub edib. Yarımfinalda Rusiya idmançısı Çingiz Labazanova uduzan güləşçimiz bürünc medal uğrunda görüşə haqq qazanıb. Üçüncü yer uğrunda görüşdə onun rəqibi Belarus idmançısı olub. Ancaq görüş güləşçimiz üçün uğurlu alınmayıb. Ruhin Mikayılov çempionatı beşinci sırada tamamlayıb.

Xatırladaq ki, Bakıda keçiriləcək İslam Həmrəyli Oyunları ilə bağlı Azərbaycanın güləş yığmaları Avropa çempionatında tam heyətlə çıxış etməyiblər.

BAKU 2017 4th Islamic Solidarity Games

# Oyunlara start verildi

**«Bakı-2017» IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasiminin sabah keçiriləcəyinə baxmayaraq, artıq yarışların bəzi növləri üzrə mübarizəyə start verilib. Futbol, habelə kişi və qadınlar arasında həndbol yarışları da bu qəbildəndir.**

Səkkiz komandanın qatıldığı futbol turnirində ev sahibi Azərbaycan ilə yanaşı, Türkiyə, Səudiyyə Ərəbistanı, Kamerun, Mərakeş, Oman, Fələstin və Əlcəzair millilləri də qələbə uğrunda mübarizə aparırlar. Azərbaycan millisi ev sahibi olduğu üçün «A» qrupunda yer alıb. Bu qrupda milli komandamızın rəqibləri Kamerun, Səudiyyə Ərəbistanı və Mərakeş millilərdir. «B» qrupunda isə Türkiyə, Əlcəzair, Oman və Fələstin yığma komandaları yarışırlar.

Yarışın ilk günündə Azərbaycan Kamerun yığması ilə qarşılaşıb, oyunda hesab açılmayıb. «A» qrupunun digər oyunu Səudiyyə Ərəbistanı və Mərakeş yığmaları arasında keçirilib. Mərakeş millisi matçın 76-cı dəqiqəsində istəyinə nail olub - 1:0. «B» qrupunun ilk oyununda isə Türkiyə millisi Əlcəzair yığmasına uduzub - 1:2. Qrupun digər görüşü Fələstin və Oman yığmaları arasında oynanılıb. Matç 2:2 hesablı heç-heçə ilə yekunlaşıb.

...Mayın 9-da isə «Sərhədçi» İdman Olimpiya Mərkəzində kişi və qadınlar arasında həndbol yarışlarının qrup mərhələsinə start verilib. Kişilər arasında yarışda 8 komanda iki qrupda mübarizə aparır. Azərbaycan, Pakistan, Əlcəzair və Səudiyyə Ərəbistanı «A» qrupunda, Türkiyə, İraq, İordaniya və Mərakeş isə «B» qrupunda yarışır. Qadınlar arasında yarışda isə 4 komanda iştirak edir. Bunlar Azərbaycan, Türkiyə, Özbəkistan və Kamerun yığmalarıdır.

Meydana əvvəlcə «A» qrupunda yer alan Səudiyyə Ərəbistanının və Əlcəzairin kişi həndbolçuları çıxıblar. Qarşılaşma 26:13 hesabı ilə birincilərin xeyrinə yekunlaşıb. Qrupun digər oyununda Pakistanla üz-üzə gələn Azərbaycan milli komandası 43:36 hesablı qələbə qazanıb. «B» qrupunun ilk oyunu Türkiyə ilə Mərakeş kollektivləri arasında keçirilib. Türkiyəli həndbolçular rəqiblərini 27:24 hesabı ilə məğlub ediblər. İraq-İordaniya görüşü isə nominal meydan sahiblərinin böyük hesablı qələbəsi ilə yekunlaşıb - 37:15.

Qadınlar arasında günün ilk matçı Türkiyə ilə Özbəkistan yığmaları arasında baş tutub. Türkiyə təmsilçiləri asan qələbəyə seviniblər - 37:21. Kamerun-Azərbaycan oyununda isə azarkeşlər maraqlı və gərgin idman mübarizəsinin şahidi olublar. Həndbolçularımız rəqiblərini 28:26 hesabı ilə çətinliklə məğlub ediblər.